№ 268 ISSN 1027-3875 30 aprel 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.RZAQIZI
Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been published twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. RZAQIZI
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



SOUTH KOREAN AMBASSADOR AT KHAZAR UNIVERSITY 6




By Seymur Kazimov
GREAT EXPECTATIONS 10



Elmira ƏLİYEVA
ELDAR QULİYEVİN KİNO DÜNYASI 12

СЕКС И ПОИСК БЛИЗОСТИ 20



GİDE MOPASSAN
KƏNDƏ SƏFƏR 22



Abel BASTİ
ÜÇÜNCÜ REYXİN SİRLƏRİ 28

USAQ DÜNYASI

34

UNİVERSİTƏ XƏBƏRLƏRİ

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ





Aprelin 14-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının sədrliyi ilə "Elm və sənət məclisi"nin növbəti – iyirmi doqquzuncu məşğələsi oldu. Türkiyənin Qazi Universitəsinin professoru doktor Ahmet Bican Ercilasun "Qaraxanlilər dövrü ədəbi dili və Oğuz türkcəsi" mövzusunda məruzə etdi.

Məruzə ətrafında müzakirələrdə filologiya elmləri doktorları Fərda Əsədov, Süleyman Əliyarlı, Ramiz Əsgər, Firudin Cəlilov, Tofiq Hacıyev, Xəzər Universitəsi Lüğət və Ensiklopediya Mərkəzinin direktoru Tofiq Abasquliyev, təhsil şobəsinin dekanı Elza Səmədova, filologiya elmləri namizədi İlhami Cəfərsoy çıxış etdilər.

Jurnalist Ismayıl Umudlunun "Elm və sənət məclisi"nin bu məşğələsi haqqında "Ayna" qəzetində dərc olunmuş (18 aprel 2009-cu il) "Bizə "ortaq ünsiyyət dili" gərəkdir" məqaləsini oxuculara təqdim edirik.

BİZƏ "ORTAQ ÜNSİYYƏT DİLİ" GƏRƏKDİR

Türk dünyasının məhsuldar araşdırmaçısı kimi tanıdığımız məşhur türkoloq professor Əhməd Bican Ərcilasun "ortaq türk dili" ideyası barədə "Ayna"nın sualını bu şəkildə dəyərləndirdi.

Hörmətli professor "ortaq ünsiyyət dili" termini işlətdi və bunu daha düzgün sayır. Belə anladıq ki, hansısa süni bir "ortaq türk dili" yaratmaqdansa, bu funksiyanı Türkiyə türkcəsinə həvalə etmək olar. Türkiyə türkcəsi bu gün Türk Dünyasında ünsiyyət vasitəsi rolunu oynaya bilir. Professor deyir ki, türk xalqları ortaq ünsiyyət vasitəsi olaraq Türkiyə türkcəsini asanlıqla mənimsəyə bilir.

Professorun misal gətirdiyi rəqəmə görə, bu gün Qırğızıstanda 500 min adam Türkiyə türkcəsində danışa bilir, bu dildəki danışıqları başa düşür, mətnləri oxuyub anlayır. Professor qeyd etdi ki, türk ölkələri istiqlal qazandıqdan sonrakı dönəmdə bu coğrafiyada rus dili türk xalqları arasında ünsiyyət vasitəsi rolunu sürətlə itirməkdədir və Türkiyə türkcəsinin bu funksiyanı praktik olaraq üzərinə götürməkdə olduğu müşahidə edilir.

Əhməd Bican Ərcilasun Bakıya Xəzər Universitəsinin rektoru Hamlet İsaxanlının dəvəti üzrə gəlmişdi və bu universitədə təşkil edilmiş növbəti elmi məclisdə Azərbaycanın mötəbər tarixçi və türkoloq alimlərinin qatılması ilə "Qaraxanilər

dövrü ədəbi dili və Oğuz türkcəsi" mövzusunda maraqlı bir elmi konfrans keçirildi. Türk dili, ədəbiyyatı, çağdaş türk ləhcə və şivələri barədə çoxlu sayda dəyərli əsərlərin müəllifi olan Əhməd Ərcilasun bu gün türkologiyada nüfuzlu simalardan biri kimi qəbul olunur.

Zəngin elmi bioqrafiyaya malik Əhməd Bican Ərcilasun İzmirdə doğulmuşdur (1943). İstanbul Universiteti ədəbiyyat fakültəsinin məzunudur (1967). Doktorluq elmi dərəcəsini Qars ləhcəsinin tədqiqi əsasında almışdır. "Kutadqu bilik"i dərindən araşdırmışdı. Bir il (1977) Vaşinqton Universitetində (Sietl) çalışmışdır. Atatürk və Qazi universitetlərində elmi-tədris fəaliyyəti ilə məşğul olmuşdur. Qazi Universitetində Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları bölümünün qurulması onun adı ilə bağlıdır. 1993-2000-ci illər arasında isə Türk Dil Qurumunun başqanı idi. Sonra bir il Qırğızıstanın Manas Universitetində dərs demişdir – qırğız dilində əla danışdığı söylənilir. 2002-ci ildə siyasətə baş vursa da, 2004-cü ilin bələdiyyə seçkilərindən sonra fəal siyasətdən çəkilmişdir. Hazırda Qazi Universitetində (Ankara) dərs deyir.

Professor Qaraxanilər dövlətində danışılan türkcə ilə Oğuz, Göytürk, Uyğur dövlətlərində danışılan türkcələr arasında maraqlı paralellər aparırdı. VII-XI yüzillər dövründə bu dövlətlərdə türk dili saraylarda mötəbər yer tutur, bu dildə bədii əsərlər yaradılırdı. Onların ən möhtəşəmi Yusif Xas Hacib Balasaqunlunun "Kutadqu bilik" və Kaşqarlı Mahmudun "Divani-lüğəti-t-türk" əsəridir. XI əsrin başlanğıcında türk dünyası əhalisinin 70 faizə yaxını müsəlman olmuşdu və onlar "Quran"ı sətiraltı tərcümə etmişdilər. Professor xatırlatdı ki, bu kitablardan üç nüsxə bizim zəmanəyədək gəlib çıxıb. Onlardan biri İstanbulda, ikincisi Mançesterdə, üçüncüsü Sankt-Peterburqda saxlanılır. Bu kitablarda Quran ayələri iri hərflərlə, sətirlərin altındakı türkcə tərcümələri isə xırda hərflərlə yazılmışdı.

Professor başqa maraq doğuran rəqəmlər gətirdi. Məsələn, "Kutadqu bilik"də yer almış 2861 sözdən yalnız 334-ü ərəb, 79-u fars sözüdür (toplam 413 söz – bu isə 14 faiz təşkil edir). Kaşqarlı Mahmudun kitabında isə 8000 söz qeydə alınmışdır. Yəni o çağlarda türk dili yetərincə kamil bir dil halına gəlibmiş. Bütün orta əsrlər boyunca hun, oğuz, karluk, suvar, qıpçaq, xəzər, bulqar soyları həm qonşuları, həm də özləri tərəfindən ortaq bir adla – "türk" adı ilə tanınırdılar. Cığatayca yazmış Əlişir Nəvaiyə ta XIX yüzilə qədər Azərbaycan və Anadoluda cığatayca nəzirələr yazılırdı. Füzuli isə Orta Asiya türkləri arasında tərcüməsiz oxunurdu.

Professor Əhməd Ərcilasun elmi konfransını çox gözəl bir türkcədə aparırdı – bu nə Türkiyə telekanallarından dinlədiyimiz türkcə idi, nə də vərdiş etdiyimiz azərbaycanca. Sintezləşmiş bir dil təsiri bağışlayırdı, fəqət çox sirayətedici və anlaşıqlı bir dil və üslub idi. Deyim ki, mən türkcədə bu dərəcədə gözəl elmi söhbət dinləməmişdim.

Sonda dinləyici auditoriyasından ona ünvanlanmış çoxlu sualları cavablandırdı. Böyük türkoloq alimin şanlı-şərəfli soyumuzun uzaq keçmişləri barədə səmimi, canlı və dərin elmi mahiyyətli bu konfransından xeyli işıqlanmış halda ayrıldıq.

SUMQAYIT MƏKTƏBLİLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 16-da Xəzər Universitəsinin prorektoru, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakultəsinin dekanı, professor Rafiq əhmədov, Təhsil fakültəsinin dekanı, elmlər namizədi Elza Səmədova, İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentinin koordinatoru, Olimpiadaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sədri Əlövsət Əmirbəyli və Xəzər Universitəsinin müəlliməsi, elmlər namizədi Zülfiyyə Vəliyeva Sumqayıt Şəhər Təhsil İdarəsinin təşkilatçılığı ilə respublikanın tanınmış məktəblərindən olan Sumqayıt Texniki və Təbiət elmləri liseyində həmin liseyin və 4, 21, 30, 35 saylı məktəblərin 11-ci sinif şagirdləri ilə görüş keçirdilər. Görüşdə Xəzər Universitəsi, universitədəki fakültələr və Xəzər Universitəsinin BP şirkəti ilə birlikdə həyata keçirdiyi ənənəvi Olimpiadası haqqında geniş məlumat verildi. Sonda məktəbliləri maraqlandıran suallar cavablandırıldı.

SOUTH KOREAN AMBASSADOR AT KHAZAR UNIVERSITY



On April 16, 2009 Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Korea to Azerbaijan Republic Mr. Lew Kwang-Chul visited Khazar University. He has been received by Vice-Rector Prof. Mahammad Nuriyev. The parties discussed questions of educational cooperation between universities of two countries.

Then Mr. Lew Kwang-Chul had a meeting with Khazar University students organized by the Institute of Politics. Director of the Institute of Politics Baba Bayramli welcomed the guest and introduced him to meeting participants. Ambassador Lew Kwang-Chul had a public speech on "Azerbaijan-Korea Economic Relations and World Economic Crisis: Perspectives for Future Development". In the end of the meeting, Mr. Lew Kwang-Chul answered questions put by the students.



İCTİMAİ TELEVİZİYANIN "OVQAT" VERİLİŞİNDƏ

Aprelin 19-da Xəzər Universitəsinin rektoru, şair Hamlet İsaxanlı İctimai Televiziyanın "Ovqat" verilişinin qonağı olmuşdur. Verilişdə, əsasən, poeziya və musiqi haqqında söhbət getmişdir.

INTERNATIONAL STUDENT SCIENTIFIC PAPER CONTEST



American Association of Petroleum Geologists organized the Students' Scientific Paper Contest in Azerbaijan. This branch is affiliated to Azerbaijan Society of Petroleum Geologists based in ***Azerbaijan Scientific Oil Research Institute.***

Khazar University students' - Muhammad Hasan Shahid's and Gasimli Ruslan's abstracts, submitted for this contest were approved.

The other 51 abstracts, selected for the event were represented by Russia, Iran, and Azerbaijan.

The students from Azerbaijan State Oil Academy and Baku State University were also the parts of the event.

The topics offered by Khazar University students were "Microbial Enhanced Oil Recovery" and "Petroleum Exploration by the help of Surface and Subsurface Geological Exploration".

Gasimli Ruslan and Muhammad Hasan Shahid won the organizers' award prize – the First Degree Diploma for their work on "Microbial Enhanced Oil Recovery" among 51 students.

The successful abstracts enabled Khazar University students to gain a membership in ***Azerbaijan Scientific Oil Research Institute, Azerbaijan National Academy of Sciences, Institute of Geology, Genesis of Oil and Gas department.***

TOURISM AS A FORM OF INTERCULTURAL DIALOGS

On April 21 the Ministry of Culture and Tourism of the Azerbaijan Republic organized the first International Conference about Tourism and Cultural Dialogs in the museum centre. The Minister of Culture and Tourism Mr. Abulfas Garayev opened the event. The British Council representatives to Baku Nicole la Housse Os De Lalouviere greeted all the` participants. She informed that, there was signed a new contract on partnership between Stevenson (Scotland) and Mingachevir Tourism colleges. The representative students were from the universities of Azerbaijan, Georgia, Great Britain, Russia, and France. They presented different topics about tourism, like "Intercultural dialogs in Tourism", "Tourism as a way of cultural dialogs", "Tourism-as a form of national culture dissemination", and etc. Khazar University representative Faig Aghabalayev's topic was on "Tourism - as a means of multicultural relations". A short content of the theme said: **"In deeper anthropological sense culture includes patterns, norms, rules and other likely contents usually encountered in behaviour. It consists of behavioral patterns, knowledge, values and traditions inherited through generations. Culture as a process covers the behaviors of individuals of specific groups. Tourism as a process has always had a preeminence of transforming one cultural value into another one. It also facilitates to intercultural**



communication dialogs. Mobility, which is important for tourism is also necessary for interaction of the various social groups, nationalities and cultures. Tourist relations through the hosting countries are capable of promotional changes".

Further, the article states that **"tourism is one of the important factors in cultural identity. Great leaders in many fields have extolled the social benefits of travel to the whole humanity. Travel is one of the noblest occupations of people. The famous Greek statesman, Solon recommended that they traveled "in order to see". To see is to increase our understanding and appreciation of other peoples and cultures. Even in a modern world, travel is an effective way of making peace. In future tourism will help us to make more stable peace and stability all over the world".**

On the second day of the conference participants visited to some historical places of Baku.

UĞURLU YOLLA – UĞURLU ADDIMLAR

Cari dərs ilində Xəzər Universitəsinə qəbul olunan abituriyentlərdən 7 nəfəri 550-dən artıq bal toplamışdı. "Xəzər Xəbər"in dərs ilindəki ilk nömrəsində (15 sentyabr 2008-ci il) onların haqqında yazı dərc etdik və onlar tələbə olmaq sevincini, universitəmiz barədə fikirlərini oxucularla bölüşdülər. "Yeddilər" adlandırdığımız həmin tələbələri redaksiyanın yaddaşında saxladıq ki, sonradan onların təhsili ilə də maraqlanaq, universitə barədə artıq tələbə kimi düşüncələrini də öyrənək. Ötən nömrəmizdə onlardan üçü ilə qısa müsahibəni təqdim etmişdik. "Yeddilər"dən qalan dördü də suallara cavab verirlər.

SUALLAR

1. Birinci semestr sizin üçün necə keçdi?

2. Universitə həyatı sizin üçün nə deməkdir?

3. Universitəyə gələndən sonra sizdə olan dəyişikliklər?

4. Universitədəki təhsil səviyyəsindən razısınız?

5. Müəllimlərinizdən razısınız?

6. Qrup uşaqları ilə münasibətiniz?

7. Final imtahanları çətin keçdi, yoxsa...

8. Universitədə qrup anlayışı varmı?

CAVABLAR



MƏHƏRRƏMOV KƏNAN
(İqtisadiyyat və menecment fakültəsi)

1. Çox maraqlı və məhsuldar, ən əsası isə müvəffəqiyyətlə keçdi.

2. Bu günüm universitə həyatı ilə sıx bağlıdır. Universitə həyatı mənim bu günümü ifadə edir.

3. Dünyagörüşüm artdı, ingilis dili səviyyəm daha da yüksəldi, bir çox məqamlarda Xəzər Universitəsi mənə kömək oldu. Həyatıma yeni insanlar, dostlar, hisslər daxil oldu....

4. Bəli, razıyam.

5. Ümumilikdə götürdükdə razıyam. P.S. İstisnalar da var.

6. Çox yaxşıdır.

7. Həyat özü də bir imtahandır və istisna deyil ki, orada da çətinliklər olur. Əsas o çətinliklərə sinə gərməkdir. Mən bu universitəyə gələndə bilirdim ki, burada təhsil almaq digər universitetlərə nisbətən çətindir, amma bu çətinliyi yalnız oxumaqla məğlub etmək olar. Bir çox insanlarda olduğu kimi, mənim də məqsədlərim var və bu məqsədlərə çatmaq üçün, əlbəttə ki, bu çətinlikləri aşmalıyam.

8. Qrup anlayışı, demək olar ki, yoxdur.



1. *Ümumiyyətlə yaxşı keçdi. Düzdür, yeni qaydalar bir az fərqli oldu, amma öhdəsidən yaxşı gəlməyə çalışdım.*
2. *Həm maraqlı, həm həyəcanlı həyat və əlbəttə ki, gələcəyə böyük inam hissi...*
3. *Artıq həyatımın yeni mərhələsinə qədəm qoyduğumu hiss edirəm. İnşaallah, yaxşı olacağına inanıram.*
4. *Razıyam, çünki bilirəm ki, Xəzər Universitəsi Azərbaycanda təhsil səviyyəsinə görə digər universitetlərdən fərqlənir və burada uğurlu gələcək üçün çox imkan vardır.*
5. *Ümumilikdə, bəli, razıyam.*
6. *Qrup yoldaşlarımla münasibətim çox gözəl və səmimidir.*
7. *İmtahanlar həyəcan keçirməyimə baxmayaraq, bir o qədər də çətin keçmədi. Semestr ərzində iki dəfə imtahan keçirildiyi üçün həyəcan ikiqat çox olur. Ümumiyyətlə, yaxşı keçdi.*
8. *Fikrimcə, xeyr, yoxdur. Mənca, İqtisadiyyat və menecment fakultəsi ümumilikdə bir qrupdur və belə daha da maraqlıdır.*

HÜMBƏTOVA NƏRMİN
(İqtisadiyyat və menecment fakültəsi)

***



1. Çox çətin olmadı. Demək olar ki, fənlərin əksəriyyətindən yüksək bal topladım. Çətinlik çəkdiyim heç bir fənn olmadı.
2. Demək olar ki, mənim həyatımda elə də böyük rol oynamır. Gözlədiyimdən daha sadə və maraqsız oldu.
3. Demək olar ki, heç bir dəyişiklik olmadı.
4. Bəli, razıyam. Kifayət qədər yüksək səviyyədədir. Azərbaycanda, doğrudan da, təhsilə dəyər verən azsaylı universitetlərdən biridir.
5. Əksəriyyətindən razıyam, amma razı olmadıqlarım da var.
6. Demək olar ki, hamısı ilə yaxşıdır.
7. Ümumilikdə çətin deyildi.
8. Məncə, Xəzər Universitəsində qrup anlayışı yoxdur.

XƏLİLOV RƏŞAD
(İqtisadiyyat və menecment fakültəsi)

***



1. *Çox asan keçdi.*
2. *Universitə həyatı mənim üçün yeni dostlar, yeni tanışlar, yeni ətraf mühit, bir sözlə, həyatımın yeni mərhələsi deməkdir.*
3. *Təzə qrup yoldaşları qazandım və dünyaya baxışım dəyişdi.*
4. *Digər universitetlərlə müqayisədə fərq hiss olunur.*
5. *Bəli, raziyam. Amma daha təcrübəli müəllimlər olsa, daha da yaxşı olardı.*
6. *Çox yaxşıdır.*
7. *Yox, məncə çətin keçmədi. Hər şey insanın özündən və iradəsindən asılıdır, oxuyan üçün çətin heç nə olmur.*
8. *Var. Məsələn, bizim qrup.*

MİKAYILOV NURLAN
(Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsi)

Vüsalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin 1-ci kurs tələbəsi



Seymur Mustafa oğlu Kazımov 1984-cü ildə Bakı şəhərində anadan olub. 2001-2005-ci illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb. 2005-2006-cı illərdə həqiqi hərbi xidmət keçib. Tələbəlik illərindən bir çox qəzetlərlə əməkdaşlıq edib. Məqalələr, analitik yazılarla dövri mətbuatda mütəmadi çıxış edir. İctimai TV-də Elm və Təhsil Departamentində çalışıb.

2007-ci ildə Gürcüstan İctimai İşlər İnstitutunun Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbində təhsil alıb. Qeyd edək ki, sözügedən məktəbin birinci semestrini Xəzər Universitəsində keçib. Tbilisidə təhsil aldığı müddətdə yazıları "Brosse Street Journal" qəzetində dərc olunub. Bundan əlavə, həmin məktəbin nəzdində fəaliyyət göstərən radio üçün radioreportajlar və televiziya proqramları hazırlayıb. Təhsil aldığı məktəbi fərqlənmə ilə bitirb.

Seymur Kazımov Gürcüstanda bir çox münaqişə zonalarında fəaliyyət göstərərək, Azərbaycan mediası üçün materiallar hazırlayıb. Hazırda ekstremal jurnalistika ilə məşğul olur. Şərhləri və informasiya tipli yazıları "Səs" İnformasiya Agentliyinin, araşdırma tipli yazıları isə **www.iwpr.net** *saytlarında ingilis və rus dillərində dərc olunur.*

GREAT EXPECTATIONS

By Seymur Kazimov

Though the war in Pankisi Gorge has already ended, the situation with refugees in this region is as bad as before. Most of the refugees want to leave Pankisi. The main reason is unemployment. The new program of Government "The Georgian Economy: Next Five Years" is aimed at improving the general situation, particularly in the villages.

A 45-years-old Vadim has been living in Pankisi for nine years. In spite of his agricultural related profession, he still cannot find a job in a village. "Government pays us 25, and the UN 30 laris a month, but these are not enough".

Vadim is one of the refugees wishing to leave Pankisi. "We have not identification card. Foreign agencies like the UN and EU are interested in our situation; local government also promises us to give the legal documents, but still there is no result", said Vadim. But he has a wish- to see the Caucasus free.

Goga Maisuradze, head of the municipality of Akhmeta region, said that building of Khodolsky hydroelectric station plays a crucial role in solving the problems with unemployment. 700 people keep themselves busy with the work here. Nowadays there are 1000 refugees but the unemployment level is still very high. But how does the local Government ensure their food security? According to Maisuradze, there is a certain sum allotted by the UN. Some aid for refugees also comes from local and central budgets. "There are 42.000 people living in Akhmeta. Our major problem is unemployment. Government makes some plans to solve this problem. There are more problems in Pankisi than in other regions of Georgia. We should develop here viniculture and agriculture. Residents of the village have got some tractors and other agricultural

equipment from the government along with 20 liters of petrol. They cultivate corn in the fields.

During his pre-election campaign the current Georgian President Mikhail Saakashvili promised to provide rural areas with agricultural equipment. He has recently started to implement this project. Pankisi were also granted with some tractors. Khaso Khangashvili, a member of the previous council applauded the President's initiative, though they understand that these are not sufficient for their subsistence. "We cannot use these equipments, because we do not own a plot of land," he said. "If I don't own land, how shall I use these tractors?"

Maisuradze also claimed that, although government tries to improve the situation with unemployment; many refugees still prefer to leave Georgia. Some of them do not have documents. "But the UN took 50 families to Turkey, Azerbaijan, Sweden and the Netherlands without documents," said Maisuradze.

24-year-old Zarema Qaziyeva has 5 children. She and her husband are still unemployed. They live for 300 laris paid by Georgian government. But she says this money doesn't help her. "My little son is handicapped. He is 1.4-year-old. Doctors promised me take him to the Netherlands or Canada for treatment. Up to now there is no answer." According to Zarema, some years ago they lived in Azerbaijan. They couldn't live there, because of unemployment. Zarema wanted to buy some food for her little child. He was crying, because he was hungry. "I cannot afford myself to buy something, because I owe 500 laris for the local grocery shop", said Zarema.

According to Ziyauddin Idigov, the head of Coordination Council of Refugees from Chechnya, at the end of 2007 the humanitarian aid rendered by UNCHR also stopped. They have replaced it with monetary compensation. Each family gets 30 laris. Each person received 14 laris a month provided by the central ministry on refugee affairs. In April, this sum was increased up to 28 laris a person. "Most of refugees are unemployed. They cannot support their families. At the same time, they cannot leave Georgia, as they have not got any legal documents for migration", said Idigov.

As Idigov told, there were a lot of shortcomings in the previous laws related to their accommodation and economic conditions. After close collaboration with some NGOs, this law is reconsidered and the Georgian Parliament has already ratified the new law. "In the new law all these questions are considered. This law is prepared in conformity with the international standard", said Idigov.

A non-commercial organization Coordination Council of refugees from Chechnya properly works with the international organizations. It is particularly concerned in small social projects. According to Idigov, there is an individual and collective project connected with livestock farming. There are projects of fishery, beekeeping and agriculture. "Not all refugees participate in these projects," said Idigov.

The refugees of Pankisi Gorge are struggling for their life and everyday activity. In spite of deficiency of workplaces, they are thankful to Georgian government, who provided them with shelters. Some of them want to live in these shelters, and not to starve. But the others aim diffrently. Vadim's goal is to struggle for peace and freedom of Caucasus.

But Zarema's goal is- to buy food for her five-year old handicapped son....

MƏDƏNİYYƏT

ELDAR QULİYEVİN KİNO DÜNYASI



Onun həyat haqqında, müxtəlif nəsilləri təmsil edən insanların yaradıcılığı və qarşılıqlı əlaqələri barədə mülahizələri kimdənsə tələm-tələsik axz edilməmişdir, bunlar onun öz fikirləridir. Tanınmış kino xadimi, Azərbaycanın xalq artisti Eldar Quliyev söhbət zamanı dedi: "Mən artıq o yaşdayam ki, çox şey barədə, o cümlədən, təəssüf ki, heç də asan olmayan, bizim qismətimizə düşmüş dəyişikliklər dövründə baş verən hadisələr haqqında sırf şəxsi baxışlarımı bölüşə bilərəm..."

Dəyişikliklər dövrü! Çox vaxt bizim başa düşmədiyimiz, bəzən hətta pislədiyimiz dəyişikliklər bizi hər yerdə müşayiət edir. Biz çətinliklə razılaşırıq ki, indi sadəlövh, bəsit təsir bağışlayan dəyərlər ortaya çıxıb, maddi dəyərlər mənəvi dəyərləri üstələyir. Hərçənd, biz başa düşürük ki, son illərdə ölkəmizdə formalaşan, sosializmdən çox uzaq olan, bizə praqmatizm ruhu aşılayan iqtisadi sistem dünyada bəşəriyyətin düşünüb tapdığı sistemlərin ən dinamik variantı kimi tanınmışdır. Bununla belə, xüsusən gənclər haqqında düşünəndə bizi narahat edən, hətta ağrıdan odur ki, aramızda romantiklərin sayı getdikcə azalır. İndiki sürət əsrində insan o qədər informasiya alır ki, onu, necə deyərlər, həzm etmək, sadəcə, qeyri-mümkün olur...

Müsahibim bir qədər fikrə gedərək dilləndi: Çox istərdim ki, indiki gənclər də, məsələn, Nizamini və Markesi oxuyaraq, Hacıbəylinin, Çaykovskinin, Qarayevin melodiyalarını dinləyərək daxili sakitlik tapmağı öyrənsinlər. Yəqin ki, bu məsələdə onlara kömək etmək, onlarda zövq aşılamaq, maraq dairəsini inkişaf etdirmək lazımdır. Mənim fikrimcə, bunu ilk növbədə məktəb etməlidir. Əlbəttə, incəsənət və ədəbiyyat vasitəsilə.

"Yetmişincilər nəsli"nin ən istedadlı nümayəndələrindən biri olan Eldar Quliyevlə görüşümüzün əvvəli beləcə, bir qədər nostalji xarakterli oldu. Lakin ustad sənətkarın sözlərində bir ümid, hətta inam duyulurdu ki, mənəvi cəhətdən məruz qaldığımız itkilər müvəqqəti haldır, hər şey yeni, müasirləşmiş formada geri qayıdacaqdır.

...Eldar Quliyevlə görüşümüzə məşhur kinorejissorun öz atası, bənzərsiz lirik melodiyaların müəllifi, unudulmaz Tofiq Quliyevə həsr edilmiş sənədli film üzərində işi tamamlaması və tanınmış kinematoqrafçı Ramiz Fətəliyevlə birgə yazdığı ssenari əsasında "İstanbul reysi" adlı tammetrajlı bədii film çəkməsi barədə AzərTAc-a daxil olmuş informasiya təkan verdi.

Hamımızın sevimlisi olmuş bəstəkar haqqında kino hekayətinin və "İstanbul reysi" adlı melodramın nə dərəcədə uğurlu olmasını tamaşaçı onları ekranda görəndən sonra söyləyə biləcəkdir. Mən isə oxucuya geriyə nəzər salaraq, tanınmış müasirimiz, filmləri ən nüfuzlu beynəlxalq kinofestivallarda bir sıra yüksək mükafat-



lara layiq görülmüş, təkcə keçmiş SSRİ-də deyil, dünyanın bir sıra ölkələrində nümayiş etdirilmiş kamil sənətkarın yaradıcılığını bir daha xatırlatmaq istəyirəm.

Eldar yeniyetmə yaşlarında heç ağlına da gətirməzdi ki, həyatını kino ilə bağlayacaqdır. Məktəbdə fizika fənni ilə çox maraqlanır, Moskva Fizika-Texnika İnstitutuna daxil olmağa hazırlaşırdı. Lakin qəflətən bütün planları dəyişdi. O vaxt kinoteatrlarda Mixail Kalatozovun sensasiyaya çevrilmiş "Durnalar uçur" filmi nümayiş etdirilirdi. Eldar bu filmə dəfələrlə baxmış, qəti qərara gəlmişdi ki, "rejissor olacağam, kino çəkəcəyəm!". Bu qərarını evlərində bildirəndə hamını mat qoysa da, heç kəs gənc Eldarı fikrindən döndərməyə çalışmadı. Eldar buna görə doğmalarına və yaxınlarına minnətdardır... Orta məktəbi qızıl medalla bitirəndən sonra iki il işləməli oldu, həmin illərdə iş stajı olmadan instituta daxil olmaq çətindi. Kinostudiyada rejissor köməkçisi vəzifəsində işləməyə başladı. Yalnız bundan sonra Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil oldu. Əvvəlcə sənədli filmlər ustası Roman Karmenin sinfində oxuyurdu. Bədii filmlər emalatxanası yaradılanda isə Karmenin məsləhəti ilə Eldar oraya getdi.

Təhsil illərində Eldar o dövrün qaydalarına uyğun olaraq, özünün yazdığı ssenarilər əsasında kurs işləri çəkirdi. Ssenarilərin əsası kimi çox vaxt Qərb ədəbiyyatı nümunələri, məsələn, Jan Anuy, Henrix Böll, O'Henri kimi sənətkarların əsərlərini seçirdi. Diplom işini isə Azərbaycan yazıçısı Salam Qədirzadənin bir hekayəsi əsasında çəkmişdi. Diplom işini əla qiymətlə müdafiə edəndən sonra doğma Bakıya qayıtdı.

Lakin gənc kinematoqrafçının debütü sənədli kinoda oldu. O, Yusif Səmədoğlunun ssenarisi əsasında Səməd Vurğunun 60 illiyinə həsr edilmiş sənədli filmi Yalçın Əfəndiyevlə birgə çəkmişdi. Filmin musiqisini isə Emin Sabitoğlu yazmışdı. Beləliklə, bir növ üçqat debüt alınmışdı – ilk rejissor işi, ilk ssenari və bəstəkarın kinoda ilk işi.


"Ürək...Ürək" filmindən kadr

Ancaq Eldar Azərbaycan və sovet kinematoqrafında o dövrdə böyük hay-küyə səbəb olmuş "Bir cənub şəhərində" adlı tammetrajlı bədii filmin quruluşçu rejissoru kimi daxil oldu. Filmin ssenari müəllifi Moskvadakı Ali ssenari kurslarının məzunu Rüstəm İbrahimbəyov idi.

Onları yaxınlaşdıran cəhətlər çox idi. Hər ikisi istedadlı, səmimi, həqiqəti ortaya qoymağı bacaran cəsarətli sənətkar idi. Həyatda çox şeyə baxışları eyni idi, baş verən hadisələri eyni şəkildə qiymətləndirirdilər. Azərbaycan neorealizmində ilk sınaq adlandırılabiləcək bu film onun müəlliflərinin öz qəhrəmanlarının dünyaya baxışlarını tamaşaçıya çatdırmaq bacarığı sayəsində nəinki Sovetlər ölkəsinin, hətta bütün dünyanın ictimaiyyətini heyran qoymuşdu. Bir sözlə, bu, müəlliflərin gözəl işbirliyi idi. Təəssüf ki, bu, sonralar davam etmədi.

Filmin doğurduğu əks-səda birmənalı deyildi. Onu tərifləyənlər də vardı, pisləyənlər də. Onun ekranlara çıxmasını da xeyli gözləmək lazım gəldi. Senzorlar həmin filmi bir ildən artıq rəflərdə saxlamış, yalnız 1969-cu ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gələndən sonra bu məsələdən xəbər tutaraq, Mərkəzi Komitənin mədəniyyət şöbəsinin müdirinə tapşırıq vermişdi ki, filmə bax və öz fikrini mənə məruzə et. Həmin şəxsin fikri müsbət oldu və film böyük ekrana çıxdı. Bundan ruhlanan gənc kinorejissor insana İnsan haqqında danışmağa imkan verən kino çəkmək arzusunun baş qaldırdığını hiss etdi.

Qırx ildən artıq müddətdə Eldar Quliyev 16 bədii və çoxsaylı sənədli filmlər çəkmişdir. Həmin



"Nizami" filmindən kadr

filmlərin ssenarilərini də istedadlı gənc azərbaycanlı müəlliflər yazmışlar.

Eldar Quliyevin yaradıcılığına nəzər salanda görürsən ki, onun ekran əsərlərinin hamısı insan haqqında, öz qəhrəmanlarından birinin – dahi Nizaminin dediyi kimi, dünya qədər nəhayətsiz olan insanın müdafiəsi barədədir. Onun istedadı, sənətkarlığı məhz insan naminə mübarizəyə yönəlmişdir. Bu baxımdan Natiq Rəsulzadə ilə birgə yazdığı ssenari əsasında çəkilmiş "Dünya gözəl dünyadır..." filmini xatırlamaq yerinə düşər.

Ekrandakı kadrlar doğma Bakının bənzərsiz mənzərələrini əks etdirəndə, kükrəyib coşan Xəzərin dalğaları sahillərə çırpıldıqda, Bakı sakinlərinin çöhrələrində xeyirxah təbəssüm nur saçanda dünya həqiqətən çox gözəl təsir bağışlayır. Lakin qəflətən tamaşaçı ilk baxışda normal adamların vəziyyətlə əlaqədar müvəqqəti olaraq evə qayıtmış ruhi xəstələrə qarşı qəddarlıqlarının, onlara əzab-əziyyət vermələrinin, məsxərəyə qoymalarının şahidi olur. "İlk baxışda" sözlərini onu görə deyirəm ki, normal insan təbiətinin mahiyyətini xeyirxahlıq, yaxınlarına sevgi hissləri təşkil edir. Məgər Azərbaycan xalqı üçün məhz bu keyfiyyətlər səciyyəvi deyilmi?! Lakin gerçək həyatımızda nələrisə itirmişik, mənəviyyat meyarları müəyyən dərəcədə aradan qalxmış, əxlaqi dəyərlər haqqında təsəvvürlər heçə enmişdir. Eldar Quliyevin bu filmi belə qüssəli fikirlər oyadır. Ancaq bütün film boyunca qüssə ilə yanaşı, ümid də özünü göstərir: yox, hələ hər şey itirilməmişdir. Filmin əsas qəhrəmanlarından birinin insanları daha xeyirxah olmağa, bir-birini sevməyə çağıran müraciətini dinləyəndə buna bir daha inanırsan.

Rejissorun daha bir ekran əsəri – 2005-ci ildə çəkilmiş "Girov" filmi də Natiq Rəsulzadə ilə əməkdaşlığın məhsuludur. Bu əsər Karlovı Varı, Kəlküttə, Göteborq və başqa nüfuzlu beynəlxalq kinofestivallarda nümayiş etdirilmişdir. Filmin əsasını real hadisə təşkil edir: ermənilər sərhədyanı kəndlərin birində bir azərbaycanlı çobanı oğurlamış, bizimkilər də bunun cavabında bir ermənini girov götürmüşdülər. Filmin süjetinə əsasən, bütün sonrakı hadisələr yaradıcı heyətin əxlaqi mövqeyini açıqlayır. Onlar baş vermiş hadisəni öz təfəkkür süzgəcindən keçirərək qiymətləndirirlər. Lakin öz fikirlərini tamaşaçılara zorla qəbul etdirməyə çalışmır, bu qətiyyətsizliyin zəiflik, qatillərə və təcavüzkarlara münasibətdə rəhmdillik, yoxsa son dərəcə yüksək hisslərin təzahürü kimi qiymətləndirmək imkanını tamaşaçılara həvalə edirlər. Bir sözlə, bu filmdə qarşıya qoyulan sual belədir: insanın seçim hüququ varmı?

Ustad sənətkarın yaradıcılığında sənədli filmlər xüsusi yer tutur. O, çəkdiyi sənədli lentləri onu narahat edən hadisələrə, qəlbində xüsusi yer tutan şəxsiyyətlərə həsr etmişdir.

Hadisələrdən söz düşəndə yəqin ki, E.Quliyevin faşizm üzərində böyük qələbənin 60 illiyinə həsr edilmiş xüsusi layihə üzrə Bakının və bakılıların bu qələbəyə verdiyi töhfələrdən bəhs edən "Unudulmuş qəhrəman" adlı publisistik fil-



"Babək" filmindən kadr

mi barədə danışmamaq olmaz. Şəxsiyyətlərə gəldikdə isə, əlbəttə, ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında, onun yaradıcı ziyalılara, gənclərə münasibətindən bəhs edən filmləri yada salmalıyıq. Bu filmlərin hər birində ulu öndərə dərin hörmət, minnətdarlıq hissləri özünü göstərir. Tamaşaçı hiss edir ki, bu filmlər həvəslə, böyük məhəbbət hissi ilə çəkilmişdir.

Eldar Quliyev kədərlənir: "Son illərdə işim əvvəlkindən azdır. Azərbaycandan köçüb getməyə imkanım vardı, lakin mən bundan qəti imtina etdim. Hərçənd, bunu heç də fədakarlıq saymıram. Sadəcə olaraq, mən istəyirdim ki, ölkəmdə, vətənimdə, bizim özümüzün daxilimizdə baş verən dəyişiklikləri görüm, hiss edim. Hadisələrə kənardan tamaşa etmək deyil, bu hadisələrin içində olmaq, onları müşahidə etmək, həyatın mənasını müasirlərimizin timsalında dərk edib öyrənmək çox vacibdir. Hər bir yaradıcı insan kimi, rejissor üçün də bunlar zəruridir, sənətkarın gərəyi olar..."

Əlbəttə, Eldar Quliyev işsiz qalmır, onun ictimai vəzifələri də var.


"Var olun, qızlar" filmindən kadr

Uzun illərdir ki, Peşəkar Kinorejissorlar Gildiyasına rəhbərlik edir, kino məhsullarının yaradılması prosesində qarşıya çıxan problemlərin həllinə xeyli vaxt ayırır. Onu tapmaq çətin deyil: hər gün doğma, yaradıcılıqda ilk addımlarını atdığı "Azərbaycanfilm" kinostudiyasına gəlir. "Debüt" studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Eldar Quliyev həqiqi peşəkar kimi gələcək kinorejissorları öyrətməkdən zövq alır, öz zəngin təcrübəsini bölüşməyə, onlarda bədii zövq aşılamağa çalışır. Gənclərlə ünsiyyətdə olmaq ehtiyacı daim özünü göstərir.


"Vacib müsahibə" filmindən kadr

O, gəncləri daha yaxşı anlamağa, onların necə, hansı hisslərlə yaşadığını dərk etməyə çalışır. Ustad sənətkar deyir: "Bu insiyyətdə mən onlara nə isə verməklə bərabər, özüm də nə isə qazanıram, qarşılıqlı zənginləşmə baş verir. Düzdür, indi kinonun çətin dövrüdür, lakin istərdim ki, vaxtilə bizim etdiyimiz kimi, indiki gənc kinematoqtafçılar da tanınmış sənətkarların yaradıcılıq təcrübəsindən istifadə etməyi və daha irəli getməyi bacarsınlar. Nəsillər arasında əlaqə zəruridir, estafet xeyirxah və bacarıqlı əllərə ötürülməlidir!"

İncəsənətin hər hansı başqa janrında olduğu kimi, yaxşı kino da təkcə istedad, bu işə sevgi və sədaqət tələb etməklə bitmir, bunun üçün həm də çox böyük iş qabiliyyəti, fədakarlıq lazımdır. Əminəm ki, müasirimiz, kinematoqrafiya sənətinin böyük ustadı Eldar Quliyevin həm öz ölkəsində, həm də onun hüdudlarından çox-çox uzaqlarda qazandığı uğur və şöhrətin təməlini bu keyfiyyətlər təşkil edir.

Elmira ƏLİYEVA,
AzərTAc-ın müxbiri

Nijad MİKAYILZADƏ

"SİRLƏR XƏZİNƏSİ"NİN YENİ TƏRCÜMƏSİ

Məlum olduğu kimi, dahi Nizaminin "Sirlər xəzinəsi" poemasını müxtəlif dövrlərdə bir neçə şair dilimizə tərcümə etmişdir. Klassik Azərbaycan və fars poeziyasının gözəl bilicisi, orijinal poetik təbə malik dostumuz Mircəlal bu yaxınlarda poemanın avtoqrafla bağışladığı yeni tərcüməsi ilə məni sevindirdi.

Mütərcim poemanın orijinaldakı adını saxlamışdır: "Məxzənül - əsrar". (Fars dilindən tərcümə edəni: Mircəlal Zəkiyev. Bakı, "Polygraphic Production", 2007). Kitabın redaktoru "riyazi və ədəb elmlərinin, təbiət və şəriət elmlərinin kamil bilicisi, universal alim" (M.Zəkiyev) Əhmədağa Əhmədov, naşiri Hacı Kamal Novruzdur.

Mütərcim ön sözdə yazır: "Biz bu əsərin tərcüməsində İran alimi Bərat Zəncaninin tərtib etdiyi mətni daha etibarlı mənbə kimi qəbul etdik və onun əsasında bu poemanı bilavasitə orijinaldan tərcümə etdik. Tərcümədə əsərin məzmununa və bədii xüsusiyyətlərinə mümkün qədər sadiq qalmağa cəhd etdik".

Kitaba çox geniş şərhlər verən M. Zəkiyev bunların əsasən istifadə etdiyi mətndən və qismən Əhmədağa Əhmədovun "Nizami – elmşünas" kitabından, müəyyən dərəcədə özünə məxsus olduğunu qeyd edir.

Kitabın redaktoru yazır: "...Nizamini qiymətləndirən, onun qədrini bilən və sənətinin qarşısında baş əyən Mircəlal Ağa Nizamiyə olan hörmət və səmimiyyət, eləcə də öz xalqına və dilinə olan məhəbbət və ehtiram əlaməti olaraq "Məxzənül - əsrar"ın yeni poetik tərcüməsini təqdim etmişdir. O, nə peşəkar filoloqdur, nə də peşəkar şairdir, texniki təhsili olan təvazökar, sadə bir şəxsdir. Lakin Nizami sənətinin vurğunu olmaqla fars dilinə, onun incəliklərinə tam müsəllətdir, bəlağət elmlərinin, bədiiyyatın, şeir mühəssənatı və rümuzatının bilicisidir. O, uzun illər boyu böyük zəhmətə qatlaşaraq bu məsul işə başlamış, məqsədi də bu olmuşdur ki, Nizaminin bu əsərini onun adına layiq şəkildə nəzmlə tərcümə etsin, onda olan sənətkarlığı, eləcə də orijinaldakı vəzni saxlamaqla öz soydaşlarına çatdırsın".

Orijinaldan və Mircəlalın tərcüməsindən gətirdiyi paralel misallarla onun tərcümə məharətini əyani surətdə nəzərə çatdıran Ə. Əhmədov davam edir: "Tərcümədə təhrif və sərbəstliyə qəti olaraq yol verilməmişdir. Mütərcim əvvəldən axıradək hər beytin tərcüməsinə məsuliyyətlə yanaşmış, orijinalın səbkini, ruhunu və ahəngini saxlamağa müvəffəq olmuşdur. Əsərin zəngin dilini, təşbih, istiarə, kinayə və s. bədii ifadə vasitələrini verə bilmiş və azəri bədii dilinin leksikasını zənginləşdirmişdir. Bu tərcümə azəri dilinin mükəmməl, zəngin və poetik bir dil olduğunu nümayiş etdirir və insafən, bədii tərcümə ədəbiyyatımıza çox qiymətli və nümunə ola biləcək bir hədiyyədir".

"Sirlər xəzinəsi"ndə ilk misraları dilimin

əzbəri olan "Sultan Səncər və qarı hekayəsi"ni (M. Zəkiyevdə – "Sultan Səncər və qarı dastanı") açıram:

Pir-e-zənira setəmi dər gereft,
Dəst zəd-o damən-e Səncər gereft.
K-ey mələk arəzm-e-to kəm dideəm,
Və-z to həme sale setəm dideəm.

Süleyman Rüstəmin tərcüməsində həmin misralar belə verilir:

Zülm edib bir qarıya çox uddurmuşdular qan,
O da Sultan Səncərin tutaraq yaxasından
Dedi ki: "Səndə insaf az görmüşəm, qulaq as,
Səndən gördüyüm zülm əsla hesaba sığmaz".

Mircəlalın tərcüməsində:

Bir qarı görmüşdü sitəm xəncərin,
Tutdu əliylə ətəyin Səncərin.
Söylədi: – "İnsafını kəm görmüşəm,
İl boyu minlərlə sitəm görmüşəm.

Aydın görünür ki, Mircəlal artıq söz işlətməmişdir və onun tərcüməsi orijinala daha yaxındır. Bir neçə misal da gətirim (əvvəl Süleyman Rüstəmin, sonra Mircəlalın tərcüməsi verilir).

"Zalım padşahın zahid ilə dastanı"ndan (Mircəlalda – "Zalım padşah ilə düzdanışan kişinin dastanı"):

Padşahi bud rəiyyət şekən,
Və-z səre-hoccət şode Həccac fən.
Hər çe be tarik-e şəb əz sobh zad,
Bər dər-e u dərc şodi bamdad.

Rəiyyəti incidən bir zalım padşah vardı,
Zülm etməkdə Həccacı o, geridə qoyardı.
Nə hadisə versə baş məmləkətdə hər gecə,
Səhər bildirilərdi padşaha hər nəticə.

Mərdimazar bir qəvi şah var idi,
Tərs idi, Həccac idi, qəddar idi.
Sübhdən axşamə nə versəydi baş,
Dərgəhinə dərs idi hər sübh faş,

"Bir şahzadənin dastanı"ndan (Mircəlalda – "Mərv məlikzadəsinin əmirlər ilə dastanı"):

Sər nəkəşəd şax-e to əz sərvbon,
Ta nəzəni gərdən-e şax-e kohon.
Ta nəşəvəd bəste ləb-e cuybar,
Pənce-ye də`vi nəqoşayed çenar.

Əgər köhnə budağın tez boynunu vurmasan,
Sənin budağın başdan, kökdən göyərməz, inan,
Bağlanmazsa doğrusu köhnə arxın qabağı,
Göylərə qalxa bilməz çinarın qol-budağı.

Ta çəkə sərvin baş, açа əl-ayaq,
Boynunu vur köhnə nə ki, var budaq!
Bağlamasan arxın o ki, ağzı var,
Davaya pəncə açа bilməz çinar.

"Bir sirr saxlayanla Cəmşidin dastanı"ndan (Mircəlalda – "Cəmşid və mühafizi dastanı"):

Hiç kəsi məhrəm-e in dəm mədan,
Saye-ye xod məhrəm-e xod həm mədan.
Zərd beh in çohreye dinar qun,
Z-anke şəvəd sorx beh ğəlqab-e xun.

Heç kəsi öz nəfsinə yaxın, aşina tutma,
Özünə kölgəni də məhrəm sayma, unutma.
Sənə min dəfə xoşdur, üzməkdənsə al qanda,
Qızıl kimi saralmaq bu vəfasız cahanda.

Bu dəmə bir kimsəni məhrəm demə!
Məhrəmin öz kölgən ola həm, demə!
Yaxşıdır, əlbəttə, saralsın belə,
Qırmızı olmaqdan üzün qan ilə.

Bütün bu misallardan da Mircəlalın tərcüməsinin orijinala daha müvafiq olduğu şübhəsizdir. Göründüyü kimi, Mircəlal bəzi hekayələrin adında da düzəliş edib, orijinal baxımından dəqiqləşdirmişdir.

Təbiidir ki, hər bir uğurlu iş kimi, Mircəlal Zəkiyevin bu tərcüməsində də gələcəkdə üzərində işləyib, dəqiqləşdirilməsi tələb olunan yerlər vardır. Bir misal göstərim. "Nuşirəvan və bayquşların söhbəti"ndəki (Mircəlalda – "Nuşirəvan ilə vəzirin dastanı") bir beytdə Nuşirəvanın öz məiyyətindən – müşayiətçilərindən uzaq düşməsindən bəhs olunur.. Mircəlal isə bunu "bir tərəfə oldu at ondan rəvan" kimi tərcümə etmişdir. Beytə həm Nizamidə, həm də Süleyman Rüstəm və Mircəlalın tərcüməsində diqqət yetirək:

Seyd konan mərkəb-e Nuşirəvan,
Dur şod əz koykəbe-ye xosrovan.

Nuşirəvan qoşunla bir gün çıxmışdı ova,
Düşdü öz dəstəsindən uzaq at qova-qova.

Ovda idi bir gün Ənuşirəvan,
Bir tərəfə oldu at ondan rəvan.

Ön sözdə mütərcim F.Köçərlinin Nizaminin bədii irsi barəsində dediklərindən sitat gətirir: "İnsaf deyil ki, onun möcüznüma kəlamları Avropa dillərinə tərcümə olunub intişar tapsın, bizlər isə onu öz dilimizdə mütaliə edib feyzyab olmaqdan məhrum olaq".

Vaxtilə ədəbiyyatşünas və yazıçılarımız bu ciddi nöqsanı aradan qaldırmağa cəhd edərək, Nizami əsərlərinin sətri tərcüməsini hazırlamış, onun əsasında nəzmə çəkmişlər. Poemanın mütərcimi və əsərin redaktoru haqlı olaraq, həmin tərcümələrdəki nöqsan və qüsurları göstərirlər. Bu, yaxşıdır və dialektika baxımından doğrudur. Çünki hər bir obyektiv tənqid inkişafa aparır. Bu gün bilavasitə Nizami əsərlərinin orijinalı ilə işləyən tərcüməçilərimizin yetişməsi də çox fərəhli haldır.

Bununla belə, o dövrün də Nizami sənətinə vurğunluqla bacardıqlarını həvəslə yerinə yetirən tanınmış alim və yazıçılarının zəhmətini heçə endirmək olmaz. Elə gətirdiyimiz misallardan da göründüyü kimi, həmin tərcümələrdə də uğurlu, daha dəqiq yerlərin olduğunu etiraf etməliyik. Odur ki, onları "xəcalət çəkməli", orijinalı "heçə endirən", "viran edən", müəllifi "təhqir edən" kimi epitetlərə layiq görən mütərcim və redaktorla razılaşa bilmərəm.

Mircəlal Zəkiyevin tərcüməsini həmin sahədə böyük uğur hesab edir və mütərcimə bu nəcib işində daha böyük nailiyyətlər arzulayıram. Ümidvaram ki, mütərcim imkan tapıb, bu gözəl tərcümənin təkmilləşdirilmiş variantını nəşr etdirəcək. Bir arzum da budur ki, həmin nəşrdə tərcümə poemanın orijinalı ilə paralel verilsin. Bu, kitabın dəyərini daha da artırar.

Ümidvaram ki, gələcəkdə müvafiq sahənin mütəxəssisləri Mircəlal Zəkiyevin sözügedən tərcüməsini mövcud olanlarla daha geniş miqyasda müqayisəli surətdə araşdıraraq, tərcümənin bütün məziyyətlərini aşkara çıxaran tədqiqat işi təqdim edəcəklər.

ELM

NAXÇIVANDA BEYNƏLXALQ SİMPOZİUM

Bəşər sivilizasiyasının ilkin məskənlərindən biri olan Naxçıvan torpağının qədimliyi burada mövcud olan tarixi abidələrdə, tapılan maddi-mədəniyyət nümunələrində qorunub saxlanılır.

Nuh peyğəmbər və onun tərəfdarları ilə bağlı faktların Naxçıvan torpağı ilə bilavasitə bağlılığı isə bu torpağın qədimliyini bir daha sübut edir. Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Peyğəmbərayağı kimi yer adlarında yaşayan bu tarix tədqiqatçıların da diqqətini cəlb etmişdir. Son illərdə Nuh peyğəmbər və dünya tufanının Naxçıvan torpağı ilə bağlılığı aktuallıq kəsb etmiş, muxtar respublikada bu istiqamətdə diqqətəlayiq işlər görülmüşdür. Muxtar respublika ərazisindəki tarixi abidələrin pasportlaşdırılması, bununla bağlı monoqrafiya və məqalələrin çap olunması, "Naxçıvan abidələri ensiklopediyası"nın nəşri bunun bariz ifadəsidir.

Bu istiqamətdə atılan ən böyük addım isə Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin yerinin dəqiqləşdirilərək qalıqlarının aşkar edilməsi və həmin abidənin bərpası olmuşdur. Bu diqqət və qayğının davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri 10 fevral 2009-cu il tarixdə "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" sərəncam imzalamışdır.

AzərTAc-ın məlumatına görə,



aprelin 24-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəyirmi zalında beynəlxalq simpoziumun açılışı olmuşdur. Azərbaycan və dünya elminin tanınmış simalarının qatıldığı simpoziumda Azərbaycandan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, Akademiyanın müxbir üzvü, Milli Məclisin deputatı Yaqub Mahmudov, AMEA-nın müxbir üzvü, Milli Məclisin mədəniyyət komitəsinin sədri Nizami Cəfərov, Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Türkiyədən professor-doktor Yaşar Kalafat, Türkiyə Respublikasının Türk Dili Qurumunun üzvü, yazıçı-tarixçi Nail Tan, Rusiyadan professor Elfina Sibqatullina, İrandan filologiya elmləri namizədi, dosent Qədir Güldikən çıxış etmiş, dünya tarixində Naxçıvanın yeri, Nuh tufanı fəlsəfəsi və onun Naxçıvanla bağlılığı, Nuh türbəsinin tarixi mənbələrdəki yeri haqqında ətraflı və elmi əsaslara söykənən mülahizələr söyləmişlər.

Sonra simpozium öz işini bölmə iclaslarında davam etdirmişdir. İki gün davam etmiş iclaslarda "Nuh peyğəmbər və dünya tufanı", "Nuh peyğəmbər və Gəmiqaya təsvirləri", "Dünya tufanı və Naxçıvan abidələri" mövzuları ətrafında müzakirələr aparılmışdır. Bölmə iclaslarında AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə yanaşı, Azərbaycanın tanınmış elm xadimləri, Türkiyə və İrandan gələn şərqşünas alim və filoloqlar iştirak etmişlər.

Simpoziumun keçirildiyi günlərdə qonaqlar Nuh peyğəmbərin məzarüstü türbəsi, şəhərin tarixi yerləri ilə tanış olmuş və Əshabi-Kəhf Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinə səfər etmişlər.



Секс и поиск близости

Что нужно для того, чтобы испытать настоящую близость с кем-то? Что такое любовь? Что такое интимная близость?

Дик Пенел

Др. Генри Брандт, в журнале Collegiate Challenge сказал однажды, что есть такой синдром или схема, когда пары приходят к нему и говорят: "В начале секс был чем-то очень приятным. Затем я стал казаться себе смешным. Через какое-то время мне стал смешен мой партнер. Мы спорили и ругались и, в конце концов, разошлись. Сейчас мы враги."

Этот синдром я называю утренним синдромом. Мы просыпаемся и обнаруживаем, что близости не осталось. Сексуальные отношения нас больше не удовлетворяют, и заканчивается все как раз так, как нам вначале совсем не хотелось, чтобы это закончилось. Все, что осталось от отношений - это два эгоистичных человека, которые ищут самоудовлетворения. Элементы искренней любви и близости невозможно заполучить "моментально", и в результате, вы оказываетесь в неустойчивом состоянии, пребывая в поисках гармонии.

У каждого из нас имеется пять значимых жизненных составляющих. В нас есть физическое, эмоциональное, интеллектуальное, социальное и духовное. Все эти пять составляющих должны взаимодействовать в гармонии. В поисках близости мы хотим решения сегодня, а лучше вчера. Одна из наших проблем состоит в том, что мы хотим "моментального" удовлетворения. А когда потребность в близости в отношениях все же остается неудовлетворенной, мы пытаемся принять "моментальное" решение. Где мы ищем решение? Физическое, интеллектуальное, социальное, эмоциональное или духовное? Физическое. Легче иметь физическую близость с кем-то, нежели близость в остальных четырех аспектах. Можно получить физическую близость с человеком противоположного пола в течение часа, получаса - все зависит от вашего желания! Но вскоре вы обнаруживаете, что секс может быть лишь временным удовлетворением неглубокого желания. Остается значительно более глубокая потребность, которая все еще не удовлетворена.

Как вы поступаете, когда захватывающее возбуждение проходит, и чем больше вы занимаетесь сексом, тем меньше он вам нравится? Тогда мы пытаемся рационализировать ситуацию словами: "Мы любим друг друга. Нет, действительно, по-настоящему любим". И все же мы испытываем чувство вины и неудовлетворенно-

ти. По всей Америке я встречаю мужчин и женщин, ищущих близости, меняющих одни отношения на другие, надеясь: "Вот в этот раз все получиться. В этот раз я обрету продолжительные отношения."
Я верю, что на самом деле мы хотим не секса. Мы прежде всего хотим близости.

ЧТО ТАКОЕ БЛИЗОСТЬ?

Сегодня слово "близость" приобрело сексуальный смысл. Но близость означает нечто значительно большее. Она включает в себя различные аспекты нашей жизни, да, и физический, но также социальный, эмоциональный, интеллектуальный и духовный аспекты. Близость, на самом деле, означает возможность полностью разделять с кем-то свою жизнь. Разве каждый из нас в тот или иной момент не испытывал желание иметь близость, единение, возможность полностью разделить с кем-то жизнь?

Маршал Ходж написал книгу, которую он назвал "Ваш Страх Любви". В этой книге он говорит: "Мы так ждем случая, когда мы сможем выразить любовь, близость и тепло, но часто в критический момент мы просто пугаемся этого. Мы боимся близости. Мы боимся любви". Позже в той же книге Ходж пишет: "Чем ближе к человеку вы становитесь, тем больше вероятность для боли". Именно страх боли часто не позволяет нам найти истинную близость.

Я читал курс лекций в университете в южном Иллинойсе. После одной из встреч ко мне подошла женщина и сказала: "Мне необходимо рассказать вам о проблемах с моим молодым человеком". Мы присели, и она начала делиться своими печалями. После нескольких минут, она сделала следующее высказывание: "Сейчас я предпринимаю шаги к тому, чтобы никогда больше не испытать боль". Я ответил ей: "Другими словами, вы предпринимаете шаги к тому, чтобы никогда больше не любить". Она посчитала, что я ее неправильно понял, и продолжила: "Нет, я не это пытаюсь сказать. Я просто не хочу, чтобы меня еще раз обидели. Я больше не хочу испытать боль". Я сказал: "Верно, вы не хотите любви в вашей жизни". Понимаете, нет такого понятия как "безболезненная любовь". Чем ближе мы становимся к кому-то, тем больше вероятность боли.

Я бы сказал, что вы (как и примерно 100 процентов всего населения) уже испытали боль в результате отношений. Вопрос в том, как вы справляетесь с болью? Для того чтобы замаскировать боль, многие из нас дают людям то, что я называю "двойным знаком". Мы говорим человеку: "Понимаешь, я хочу, чтобы ты стал(а) мне ближе. Я хочу любить и быть любимым... но, минуточку, мне уже причиняли боль до этого. Нет, больше я не хочу говорить об этом. Я не хочу больше все это слышать". Мы выстраиваем стены вокруг своего сердца, для того чтобы защитить себя от того, чтобы кто-то, находящийся снаружи, не проник к нам и не нанес нам боль. Более того, та же самая стена, которая не позволяет другим людям пробраться внутрь, держит нас взаперти. Результат? Одиночество занимает свое место, а настоящая близость и любовь становятся невозможными.

PROZA

Gİ DE MOPASSAN

KƏNDƏ SƏFƏR

hekayə



Beş aydan bəri Düfurlar ailəsi xanım Düfur Petrolinin ad günündə Paris ətrafındakı mənzərəli yerlərdən birində nahar etməyi qərara almışdı. Səfəri çoxdan, səbrsizliklə gözləyirdilər, təyin olunmuş günün səhəri hamı erkən qalxmışdı. Cənab Düfur süd satanın arabasını kirayə götürmüşdü, özü sürürdü. Araba iki təkərli idi, tərtəmizdi. Üst örtüyü dörd dəmir dayağın üzərinə bərkidilmişdi, yanları pərdəli idi, amma pərdələri yığmışdılar ki, ətraf yaxşı görünsün. Təkcə arxa tərəfin pərdəsi yığılmamışdı. Bayraq kimi yellənirdi. Arvad ərinin yanında oturmuşdu, qırmızımtıl ipək don geymişdi, gözləri gülürdü. Arxada iki kətilin üstündə qoca nənə və gənc bir qız oturmuşdu. Ortada sarı bir oğlan başı da görünürdü. Kətil olmadığından o, arabanın ortasında qıçlarını qatlayıb oturmuşdu, təkcə başı görünürdü. Şan-Elize prospekti ilə gedib, Mayyo qapısını keçəndən sonra ətrafa tamaşa eləməyə başladılar. Nöyi körpüsünə çatanda cənab Düfur dilləndi:

— Axır ki, kənd yerinə çatdıq.

Onun bu xəbərdarlığından sonra arvadı məmnun-məmnun təbiətə tamaşa eləməyə qurşandı. Kurbövüa meydanında getdikcə genişlənən üfüqü görüb sevindilər. Orada, sağda zəng qülləsi ucalan Arjantöy qəsəbəsi, yuxarı tərəfdə Sanua təpələri və Mulen d'Orjemon görünürdü. Solda Marli su kəməri səhər günəşinin işığında bərq vururdu. Uzaqdan Sen Jermen təpəsi gözə çarpırdı. Qarşıdakı şumlanmış torpaqlardan bilinirdi ki, Yeni Korley qalası yaxınlıqdadır. Lap uzaqda, kəndlərin və tarlaların arxasında dumana bürünmüş bir yaşıllıq, meşə görünürdü. Günəş yandırmağa başlayırdı, toz qalxıb arabadakıların gözünə dolurdu. Yol çılpaq, çirkli və üfunətli bir kəndin ortasından keçirdi. Kəndə elə bil cüzam düşmüşdü, evləri də çürüdüb dağıtmışdı. Hər tərəfdə tərk edilmiş, dağıdılmış evlərin qəfəsəsi, yaxud pulsuzluq üzündən tikilib başa çatdırılmamış daxmaların çılpaq, damsız divarları görünürdü. Hərdən uzaqlarda, çöldə uca fabrik bacaları gözə çarpırdı, elə bil onlar bu çürük torpağın yeganə bitkiləri idi. Burada bahar küləyi neftin, müxtəlif süxurların iyini başqa, daha murdar bir iyə qarışdırıb ətrafa yayırdı. Nəhayət, Sena çayını ikinci dəfə keçdilər, körpünün üstündə hamı çayın gözəlliyinə tamaşa edirdi. Çay günəş şüalarının altında bərq vururdu, sanki su buxarlanıb çayın üzərində seyrək bir duman əmələ gətirmişdi. Adam ləzzət alırdı, hava təmiz idi. Havaya nə zavodların tüstüsü, nə də zibilliklərdən gələn üfunət qarışmamışdı. Yol keçənlərin birindən bu yerin adını soruşdular, dedi ki, bura Bezondur. Cənab Düfur arabanı saxladı, yeməkxananın üstündəki qarışıq yazını oxudu: "Pulen restoranı. Xörəklər balıqdan və ətdən hazırlanmışdır. İstirahət otaqları, bağça və yelləncəklər".

— Hə, necədir? Düfur xanım, xoşuna gəlirmi? Bir qərara gələcəksən, ya yox?

Yazını arvad da oxudu: "Pulen restoranı. Xörəklər balıqdan və ətdən hazırlanmışdır. İstirahət otaqları, bağça və yelləncəklər".

Xanım xeyli dayanıb evə baxdı. Ev yol kənarında tikilmiş kənd meyxanası idi, yaxşı ağardılmışdı. Açıq qapıdan bufetin tənəkə haşiyəsi görünürdü, bufetin qarşısında iki fəhlə baş-başa verib vaxtlarını keçirirdilər. Nəhayət, xanım Düfur qərara gəldi:

— Hə, bura yaxşıdır, — dedi, — tamaşa eləməli mənzərə də var.

Arabanı meyxananın arxasındakı geniş bağa sürdülər. Bağ Sena çayına qədər uzanırdı. Hər tərəfi iri ağaclar örtmüşdü.

Arabadan tökülüşdülər. Ər əvvəlcə düşdü, əllərini irəli uzadıb, arvadını qucağına alıb düşürmək istədi. Amma dəmir qoldan asılmış ayaqlıq çox hündürdə idi, xanım Düfur ərinin qolları arasına düşmək üçün bir qıçını sallamalı oldu, qıçının yuxarıları da göründü, incəlikdən nişanə qalmamışdı, budu köklükdən qat-qat idi. Kənd havasından bir az cuşə gəlmiş cənab Düfur arvadından bir çimdik aldı, sonra onu ağır bir bağlama kimi güc-bəla ilə götürüb yerə qoydu. Arvad ipək donunun tozunu təmizləmək üçün üst-başını çırpdı, sonra yan-yörəyə tamaşa eləməyə başladı. Xanımın otuz beş-otuz altı yaşı olardı, kök idi, pis deyildi, üzdən xoşa gəlirdi. Korset belini elə möhkəm sıxırdı ki, təngnəfəs olurdu. Sinəsinin yumşaq əti sıxılıb yuxarıya lap buxağına qədər qalxmışdı. Qız əlini atasının çiyninə qoyub heç kəsin köməyini gözləmədən çevikliklə yerə atıldı. Sarısaç oğlan ayaqlarını arabanın təkərinə qoyub yerə düşdü. Sonra o, nənəni düşürməkdə cənab Düfura kömək elədi. Atı arabadan açıb bir ağaca bağladılar. Arabanın qolları yerə dirəndi, arxası yuxarı qalxdı. Kişilər pencəklərini çıxarıb əllərini bir vedrə suda yudular, sonra yelləncəklərdə əyləşmiş arvadların yanına qayıtdılar. Xanım qız Düfur yelləncəkdə tək ayaq üstə durub yellənmək istəyirdi, amma təkan vura bilmirdi. O, on səkkiz-iyirmi yaşlarında gözəl bir qızdı. Belə qadınlara yolda rast gələndə adamın ürəyi çırpınır, gecə yarıya qədər qəribə bir hisslə yaşayırsan, unuda bilmirsən. Boyu uca, beli incə, sağrısı enli idi. Dərisi çəhrayı, gözləri iri, saçı qara idi. Bədəninin ətli olmasını donu büruzə verirdi. Hər dəfə yelləncəyə təkan verəndə budları daha çox nəzərə çarpırdı. O, yelləncəyin ipindən bərk-bərk yapışmışdı, sinəsini dik tutmuşdu. Şlyapasını külək qaldırıb arxaya atmışdı, yelləncək yavaş-yavaş işə düşmüşdü. Hər dəfə qalxanda yaraşıqlı qıçları dizə qədər görünürdü, paltarının ətri gülə-gülə ona baxan kişilərin burnuna vururdu. Bu onlara şərab iyi kimi ləzzət verirdi. Xanım Düfur başqa bir yelləncəkdə oturub incik səslə çağırırdı:

— Sipryən, gəl məni itələ, gəl məni yellə Sipryən!

Axır ki, kişi arvadına tərəf getdi, ağır bir işə hazırlaşırmış kimi, köynəyinin qolunu çirmələdi, sonra güc-bəla ilə arvadını yelləməyə başladı. Xanım kəndirdən bərk-bərk yapışmışdı, ayaqlarını irəliyə uzatmışdı ki, yerə toxunmasın. Yelləndikcə vəcdə gəlirdi. Hər təkanda bədəni, donmuş baş-ayaq suyu kimi, titrəyirdi. Yelləncək yuxarı qalxdıqca xanım həyəcanlanır və qorxurdu. Hər dəfə enəndə bərkdən qışqırırdı. Axırda kəndin uşaqları qaçıb tamaşaya gəldilər. Xanım aşağıda üz-gözlərini qırışdırıb hırıldaşan bir dəstə uşaq gördü. Xidmətçi qadın gəldi. Onlar nahar sifariş elədilər.

— Çay balığı, dovşan əti, salat, bir də desert, — deyə, xanım əda ilə dilləndi.

— İki litr süfrə şərabı və bir şüşə də Bordo şərabı gətirin, — deyə, əri içki sifariş elədi.

Qız da əlavə etdi:

— Biz çəmənlikdə nahar edəcəyik.

Qarı isə həyətin pişiyinə vurulmuşdu, onu cürbəcür şirin sözlərlə oxşayıb yanına çağırırdı. Pişik bu mehribanlıqdan xoşhallansa da, çox yaxına gəlmirdi, qarının yan-yörəsində dolanır, ağacların başına fırlanır, quyruğunu dik qaldırır, ağaca sürtünüb qaşınır, ləzzət alır, astaca xoruldayırdı. Yerdə oturmuş sarısaç oğlan qəfildən qışqırdı:

— Bir ora baxın, görün nə gözəl qayıqlardır!

Qayıqlara baxmağa getdilər. Balaca çardağın altında iki qəşəng qayıq asılmışdı. Qayıqlar zövqlə düzəldilmişdi, yanaşı durmuş bir cüt ucaboy qıza oxşayırdı: uzun, ensiz və yaraşıqlı idilər. Onlara

baxanda gözəl axşam çağında, yaxud yay səhərində suda üzmək, çiçəyə qərq olmuş sahil boyu suya sallanan budaqların arası ilə mavi ox kimi uçan su quşlarının arxasınca üzmək istəyirsən. Bütün ailə həsədlə qayıqlara baxırdı. Cənab Düfur onları tərifladi:

— Hə, bax, bunlara qayıq deyərəm.

O, qayıqları usta gözü ilə yoxlayırdı. Deyirdi ki, cavanlığında o da qayıq sürürmüş. Avarları göstərib lovğalanırdı ki, avarı əlinə aldımı, qurtardı, heç kəs onunla bacarmazmış. Əvvəllər Jüənvildə neçə-neçə ingilisi yarı yolda qoyubmuş. Sonra o, avarlar bərkidilən çıxıntıları göstərib, onların "dama" adlandırıldığını söylədi, dedi ki, qayıqçılar "dama"ları hər ehtimala qarşı özləri ilə gəzdirirdilər. O danışdıqca özündən çıxır, yanındakılarla mərc gəlmək istəyirdi ki, belə bir qayıqla tələsmədən saatda altı lye üzə bilər.

— Yemək hazırdır, — deyə, xidmətçi qadın çardağın altındakıları xəbərdar elədi.

Onlar həyətə tələsdilər. Xanım Düfurun xəyalən seçdiyi ən gözəl yerdə iki nəfər gənc oturub nahar edirdi. Onlar dənizçi köynəyi geymişdilər, yəqin qayıqların sahibləri idilər. Oğlanlar alçaq stulların üstündə yayxanmışdılar. Üzləri gündən qaralmışdı, əyinlərində nazik mayka vardı. Çılpaq qolları dəmirçi qolu kimi əzələli idi. Ancaq hər hərəkətlərində incəlik vardı. Hiss olunurdu ki, idmançıdırlar, əzələləri ağır və yeknəsəq əməkdən yaranmış fəhlə əzələsinə oxşamırdı. Onlar xanımı görəndə bir-birinə baxıb gülümsədilər, qızı görəndə isə biri dedi:

— Gəl, yerimizi onlara verək, tanışlıq üçün imkan yaranar.

O birisi həmin dəqiqə yarıqırmızı, yarıqara papağını əlinə alıb ayağa qalxdı və bağda gün dəyməyən bu yeganə yeri qadınlara təklif elədi. Qadınlar uzun-uzadı təşəkkürdən sonra təklifi qəbul elədilər, kəndi daha yaxından duymaq üçün çəmənlikdə oturdular, nə masa istədilər, nə də stul. Oğlanlar qablarını bir kənara aparıb, naharı başa vurdular. Onların tez-tez gözə çarpdırdıqları çılpaq qolları gənc qızı bir az narahat edirdi. O, üzünü yana çevirir, özünü görməməzliyə vururdu. Xanım Düfur isə gözüaçıqlıq eləyirdi, maraqla, bəlkə də həsədlə tez-tez çevrilib onlara baxırdı: yəqin onların qıvraqlığını ərinin gizli eybəcərlikləri ilə müqayisə edir, təəssüflənirdi. Xanım Düfur qıçlarını qatlayıb yerdə oturmuşdu, bədəninə qarışqa daraşdığını bəhanə edərək tez-tez ora-burasını qaşıyırdı. Cənab Düfur bu oğlanların yaxınlıqda olmasına və canfəşanlıq etdiklərinə görə dilxor olmuşdu, hey qurdalanır, yerini rahatlaya bilmirdi. Sarıbaş oğlan isə başını aşağı salıb yeməyə qurşanmışdı.

— Gözəl hava var, cənab, — deyə, kök qadın qayıqçılardan birinə müraciət etdi. Öz yerlərini verdiklərinə görə xanım onlara dilağız eləmək istəyirdi.

— Elədir, xanım- deyə, oğlan cavab verdi. — Siz kəndə tez-tez gəlirsiniz?

— İldə bir, ya da iki dəfə, hava almağa gəlirik; bəs siz necə, cənab?

— Mən hər gecə burada oluram.

— Ah, yəqin ləzzət alırsınız?

— Bəli, xanım.

Sonra o, şairanə sözlərlə gününü necə keçirdiyindən danışdı. Elə danışırdı ki, çəmənlik və tarlalardan məhrum olmuş, təbiət həsrəti ilə yaşayan, bütün ili dükanda oturmaqdan bezikmiş bu meşşanların ürəyi sızıldayırdı. Gənc qız başını qaldırıb maraqla qayıqçı oğlana baxdı. Cənab Düfur axır ki danışdı:

— Bax, buna həyat deyərəm. — Sonra əlavə elədi: — Bir az da dovşan əti istəyirsənmi, gözəlim?

— Yox, sağ ol, əzizim.

Xanım yenə üzünü oğlanlara çevirdi, onların çılpaq qollarını göstərib dedi:

— Siz belə üşümürsünüz?

Onların ikisi də güldülər. Bütün günü necə çalışdıqlarından, qan-tərə batdıqlarından, gecənin qaranlığında necə üzdüklərindən danışıb qonşularını heyrətə gətirdilər. Sonra yumruqlarını sinələrinə döyüb

necə möhkəm olduqlarını göstərdilər. Xanımın əri daha ingilisləri necə ötüb keçdiyindən danışmırdı, oğlanlara dedi:

— Sizin sağlam bədəniniz var.

Gənc qız çevrilib onlara baxırdı. Sarıbaş oğlan şərabı birbaş şüşədən içirdi, qəfildən çeçədi, öskürdü, xanımın qırmızımtıl ipək donunu batırdı. Xanım hirsləndi, ləkələri təmizləmək üçün su istədi. Hava bərk qızmışdı. Günəşin şüalarında bərq vuran çay elə bil istidən qaynayırdı. Şərab Düfurların başını kicəllən-dirdi. Cənab Düfur bərk hıçqırırdı, jiletinin yaxasını açmış və şalvarının belini boşaltmışdı. Xanım təngnə-fəs olmuşdu, yavaş-yavaş donunun yaxasını açırdı. Sarıbaş oğlan şən-şən saçı pırpızaq başını yelləyir, ara vermədən şərab süzüb içirdi. Qarı kefləndiyini duyub özünü şax və təmkinli saxlamağa çalışırdı. Qız isə heç nə büruzə vermirdi, ancaq gözləri azacıq parıldayırdı, həm də qarabuğdayı yanaqları bir az qızarmış-dı. Qəhvə içib naharı başa vurdular. Oxumaq istədilər. Hərə öz bildiyi mahnını oxudu, qalanları hərarətlə əl çaldılar. Sonra ağır-ağır ayağa qalxdılar. Arvadlar keyləşmişdilər, təngnəfəs olmuşdular. Kişilərin ikisi də kefli idi, gimnastika ilə məşğul olmağa başladılar. İkisi də kütləşmiş, üzləri səfeh bir ifadə almışdı. As-ma həlqələrdən sallandılar, amma heç biri özünü qaldıra bilmədi. Köynəkləri az qala şalvarlarından çıxıb sallanacaqdı. Qayıqçılar qayıqları suya salmışdılar, yaxınlaşıb nəzakətlə xanımları çayda gəzməyə dəvət etdilər.

— Cənab Düfur, icazə verirsinizmi?

- Xahiş edirəm! — deyə, Düfurun arvadı həyəcanla soruşdu.

Düfur axan gözlərini arvadına zillədi, heç nə anlamadı. Qayıqçı oğlanlardan biri iki tilov gətirdi. Balıq tutmaq həvəsi kişinin dumanlanmış gözlərinə işıq gətirdi, xırdavatçıların hamısı həvəskar olurlar. O hər şeylə razılaşdı, gəlib körpünün altında, kölgədə tilov atdı, qıçlarını aşağı sallayıb oturdu. Sarıbaş oğlan özü-nü onun yanına verib yuxuya getdi. Qayıqçılardan biri güzəştə getməli oldu, xanımı öz qayığına götürdü. İngilis adasındakı balaca meşəyə gedirik, — deyə, dostunu xəbərdar elədi. O biri qayıq asta-asta üzürdü. Avar çəkən öz sərnişininə elə aludə olmuşdu ki, başqa heç nə fikirləşə bilmirdi. Qəribə bir həyəcan onu gücdən salmışdı. Gənc qız avarçının kreslosunda oturmuşdu, qayıqdan, sudan ləzzət alırdı. O heç nə fikir-ləşmirdi, özünü rahat və sərbəst hiss edirdi, məst olmuşdu. Yanaqları qıpqırmızı idi, tez-tez nəfəs alırdı. Şə-rabın sərməstliyi ətrafı oda qərq eləmiş günəşin istisinə qarışmışdı. Qız sahildəki ağacların hər birinə dərin məhəbbətlə baxırdı. Havanın hərarəti onun qanını qaynadır, ürəyində qəribə bir arzu baş qaldırırdı. İstinin qorxusundan heç kəsin görünmədiyi bu kimsəsiz yerdə, suyun üzündə oğlanla tək qalması da qıza qəribə bir həyəcan gətirirdi; özü də oğlan onun gözəlliyinə heyran olduğunu büruzə verir, baxışları ilə onu öpüşə qərq eləyir, ehtirasdan od tutub yanırdı. Onlar cəsarət edib danışa bilmədiklərinə görə daha da həyəcanlanır, yan-yörəyə tamaşa edirdilər. Axırda oğlan iradəsini toplayıb onun adını soruşdu.

— Anriyet, — deyə, qız cavab verdi.

— Nə yaxşı, mənim adım isə Anridir.

Onlar bir-birinin səsini eşidib sakitləşdilər. Sahilə tamaşa eləməyə başladılar. O biri qayıq dayanmışdı, deyəsən, onları gözləyirdi. Qayıqçı oğlan qışqırdı:

— Meşədə görüşərik, biz Robinzona getməli olduq, xanım su içmək istəyir.

Sonra o, avarlara güc gəldi, elə tez uzaqlaşdı ki, az sonra gözdən itdilər. Uzaqdan boğuq bir gurultu eşidilirdi, səs yavaş-yavaş yaxınlaşırdı. Elə bil çayın suyu titrəyir, gurultu suyun dibindən gəlirdi.

— Bu nə səsdir? — deyə, qız soruşdu.

Səs adanın başındakı bənddən gəlirdi. Bənd burada çayın suyunu iki yerə bölür. Oğlan uzun-uzadı izah eləməyə başladı. Birdən şəlalənin gurultulu səsinə bir bülbülün cəh-cəhi qarışdı. Onların hər ikisi bu zəif səsə heyran-heyran qulaq asdı. Oğlan dilləndi:

— İşə bax, bülbül günün günorta çağı oxumağa başlayıb, deməli, dişi bülbül kürt yatır.

Bülbül! Qız heç vaxt bülbül cəh-cəhi eşitməmişdi, bu səs onun xəyalında şairanə məhəbbət mənzərələri yaratdı. Bülbül! Bu quş Cülyettanın öz balkonundakı məhəbbət görüşlərinin gözəgörünməz şahididir, bu musiqi göydən enib kişilərin öpüşlərinə qarışır. Bütün həzin romansların ifaçısı bu quş, gözəllik vurğunu zavallı qızların xırdaca ürəklərini şirin arzularla doldurur.

Qız bülbülü dinləmək istəyirdi.

— Gəl səsimizi çıxarmayaq, — deyə, oğlan qıza işarə elədi. — Meşəyə girib bülbülün lap yaxınlığında otararıq.

Qayıq asta-asta üzürdü. Sahil qayası elə alçaq idi ki, ağaclar və kolların arası görünürdü. Onlar dayandılar, oğlan qayığı sahilə bağladı. Anriyet Anrinin qoluna söykəndi, onlar budaqların arası ilə irəlilədilər. Oğlan dedi:

— Əyilin aşağıya.

Qız əyildi, onlar sarmaşıq, yarpaq və qamışlarla örtülmüş bir yerə girdilər, bura lap evə oxşayırdı, tanımayan adam bu yeri tapa bilməz. Oğlan zarafatla dedi ki, bura onun "şəxsi kabineti"dir. Bülbül onların başı üstündəki budaqda idi, ara vermədən cəh-cəh vururdu. O gah asta, gah titrək səslə oxuyur, gah da elə zəngulə vururdu ki, elə bil səsi üfüqə çatır, çay boyu axır, istidən kimsəsiz qalmış tarlalara, bağlara yayılırdı. Onlar quşu qorxudacaqlarından ehtiyat edib danışmırdılar.

Yanaşı oturmuşdular. Anrinin qolu yavaş-yavaş Anriyetin belinə dolandı və onu astaca sıxdı. Qız acıqlanmadı, oğlanın cəsarətli əlini kənar elədi. Sonra bu yüngül mübarizə tez-tez təkrar olundu: çünki əl dinc durmurdu. Qız oğlanın nəvazişindən narahat olmurdu, elə bil əlin onu sığallaması da, onun əli kənar etməsi də adi bir iş imiş. Qız bülbülə qulaq asırdı, şirin bir xəyala dalmışdı. O sonsuz bir xoşbəxtlik, mehriban bir nəvaziş, ən gözəl şeirlər arzulayırdı. Əsəbləri süstləşmiş, ürəyi elə kövrəlmişdi ki, özündən xəbərsiz ağlayırdı. Oğlan indi onu sinəsinə sıxırdı. Qız onu daha itələmirdi.

Birdən bülbül susdu. Uzaqdan bir səs eşidildi:

— Anriyet!

Oğlan astadan dedi:

— Cavab verməyin, yoxsa quş uçar.

Qızın özünün də cavab vermək fikri yox idi. Onlar bir anlıq beləcə qaldılar. Xanım Düfur haradasa oturmuşdu. Hərdən qarışıq səs eşidilirdi, xanım astadan ufuldayırdı, deyəsən, o biri qayıqçı dəcəllik edirdi. Qız şirin xəyala dalıb ağlayırdı, bədənini qəribə bir hərarət bürümüşdü, Anri başını onun çiyninə qoymuşdu, birdən qızın dodaqlarından öpdü. Qız diksindi, ondan yaxa qurtarmaq üçün arxaya dartındı. Oğlan qızın üstünə yıxıldı, bədəni ilə onun bədənini örtdü. Ağzı ilə qızın dodaqlarını axtardı, qız imkan vermədi, axır ki, Anri dodaqlarını qızın dodaqlarına sıxdı. Qız ehtirasından titrədi, öpüşə cavab verdi, oğlanı sinəsinə basdı, onun müqaviməti elə bil ağır bir yük altında qalıb çilik-çilik oldu. Ətraf sakit idi. Quş yenidən oxumağa başladı. Əvvəlcə üç dəfə ucadan cəh-cəh vurdu, sanki dünyanı sevib-sevilməyə çağırırdı. Sonra azacıq ara verib, incə səslə nəğməsinə başladı. Mülayim bir meh əsdi, yarpaqlar pıçıldaşdı. Budaqların arasına ehtirasdan təngnəfəs olmuş iki nəfərin odlu nəfəsi dolur, orada bülbülün nəğməsinə, yarpaqların xışıltısına qarışırdı. Bülbül sərməstləşirdi, nəğməsi güclənən yanğının alov dilləri kimi ucalır, insan ehtirası kimi güclənir, elə bil ağacın altından gələn öpüş səslərini müşayiət edirdi. Sonra hey qıy vurur, səsini uzadır, sanki titrək səslə fit çalırdı. Hərdən bülbül nəfəsini dərirdi, iki-üç dəfə astadan oxuyub, sonra cır səslə nəğməyə yekun vururdu. Bəzən də coşur, ara vermədən cəh-cəh vurur, özündən çıxır, elə bil alovlu bir eşqə nəğmə deyir, nəğməyə qələbə sədaları ilə yekun vururdu.

Birdən bülbül susdu, ağacın altında bir inilti eşidildi, sanki kim isə can verirdi. Səs xeyli davam elədi, sonra hönkürtüyə çevrildi. Onlar ayağa qalxanda hər ikisinin rəngi sapsarı idi. Gözlərində günəş sönmüş, mavi səma tutulmuşdu. Özlərini tənha sanır, susurdular. Onlar yanaşı gedir, tələsirdilər, nə kəlmə kəsir, nə

də bir-birinə toxunurdular. Elə bil düşmən kəsilmişdilər, bir-birindən iyrənir, bir-birinə nifrət edirdilər. Hərdən Anriyet anasını səsləyirdi:

— Ana!

Kolluqların birində çaxnaşma düşdü. Anriyə elə gəldi ki, orada iri, ətli bir qılçanı tələm-tələsik ağ gecə köynəyi ilə örtdülər. Sonra kök qadın göründü, bir az pərt olmuşdu, rəngi daha da qızarmışdı. Xanımın gözləri parıldayırdı, yaxası yaxşı düymələnməmişdi, oğlana çox yaxın oturmuşdu. Deyəsən, oğlan maraqlı şeylər görmüşdü, özü büruzə vermək istəmirsə də, gözləri bic-bic gülürdü. Xanım Düfur mehribanlıqla qolunu oğlanın qoluna keçirdi, onlar qayıqların yanına qayıtdılar. Anri irəlidə lal-dinməz, qızla yanaşı gedirdi. Ona elə gəldi ki, arxadan nəfəskəsən, uzun bir öpüş səsi eşidildi.

Axır ki, gəlib Bezona çatdılar. Cənab Düfur ayılmışdı, darıxırdı, sarıbaş oğlan yola düşməzdən əvvəl yeyirdi. Araba qoşulmuşdu. Qarı yerini tutmuşdu, narahat idi, qorxurdu ki, gecəyə düşsünlər, Parisin ətrafı yaramaz adamlarla doludur.

Əl verib ayrıldılar. Düfurlar ailəsi yola düşdü. Qayıqçılar onların arxasınca qışqırdılar: — "Görüşənə qədər!" Arabadakılardan biri köksünü ötürdü, başqa birinin isə gözləri doldu. İki ay sonra Martir küçəsi ilə gedəndə Anri qapılardan birinin üstündə belə bir yazı gördü: "Dəmir məmulatı mağazası, Düfur". O, mağazaya girdi. Kök qadın kassanın arxasında oturmuşdu. Həmin saat bir-birini tanıdılar. Xeyli şirin söhbət eləyəndən sonra Anri soruşdu:

— Anriyet necədir?

— Çox yaxşıdır, sağ olun, ərə gedib.

— Hə?

Anri qəribə bir həyəcanla soruşdu: — Kimə... Kimə gedib?

— Bizimlə gəzintidə olan oğlana, tanıyırsınız, o bizim varisimiz olacaq.

— Hə, çox gözəl!

Anri qaşqabağını tökmüşdü, heç özü də bilmirdi ki, niyə pərt olub. Çıxıb getmək istəyəndə xanım Düfur arxadan çağırdı:

— Bəs sizin dostunuz necədir? — deyə, utancaq-utancaq soruşdu.

— Lap yaxşıdır.

— Bizdən ona salam söyləyin, yaxşımı, tapşırın ki, bu tərəflərə yolu düşəndə bizə baş çəksin...

Xanım qıpqırmızı qızardı, sonra əlavə elədi: — Ona deyin ki, mən çox məmnun olaram.

— Mütləq deyərəm, xudahafiz!

— Xudahafiz yox... yaxın görüşə qədər!

Bir il sonra qızmar bazar günlərindən birində meşədəki əhvalat Anrinin yadına düşdü. Əslində həmin əhvalatı o heç unutmurdu, amma bu dəfə elə aydın, elə ürək yanğısı ilə xatırladı ki, dözə bilməyib təktənha həmin guşəyə getdi.

Ora çatanda mat qaldı. Qız orada idi. Həmin yerdə, otun üstündə oturmuşdu, qəmgin idi. Əri, sarıbaş oğlan onun yanında yuxuya gedib heyvan kimi xoruldayırdı, keçən il geydiyi uzunqol köynəyi də əynində idi. Anrini görəndə qızın rəngi elə qaçdı ki, az qala ürəyi gedəcəkdi. Sonra onlar aralarında heç nə olmayıbmış kimi, söhbət eləməyə başladılar. Oğlan deyirdi ki, bu yeri çox sevir, hərdən bazar günləri gəlib burada istirahət edir, keçmiş gözəl dəqiqələri xatırlayır. Bu sözləri eşidəndə qız gözlərini oğlanın gözünə zilləyib xeyli baxdı, sonra dedi:

— Mən bu yeri hər axşam yadıma salıram.

— Gedək, əzizim, — deyə, onun əri oyanıb əsnəyə-əsnəyə söhbəti kəsdi. — Məncə, qayıtmaq vaxtıdır.

Tərcümə: **Hamlet QOCA**

TARİX

Abel BASTİ

ÜÇÜNCÜ REYXİN SİRLƏRİ



Abel Basti-Cənubi Amerika yazıçısı, sənədşünas. 1958-ci ildə Argentinada anadan olub. 20 yaşından etibarən mətnşünaslıq və sənədşünaslıqla (dokumentalistika) məşğul olur. İlk dəfə məhz Basti faşist Almaniyasının lideri Adolf Hitlerin İkinci dünya müharibəsindən çox illər sonra vəfat etdiyini sübut edib. Onun tədqiqata cəlb etdiyi sənədlər və xüsusi xidmət orqanlarının arxivlərindən topladığı fotolar bunu deməyə əsas verir. Basti faktlara əsaslanan, onları cəmiyyətə ilk dəfə təqdim edən onlarca kitabın müəllifi olsa da, məhz 2004-cü ildə yazdığı "Nasistlər Bariloçda" (Bariloç-Argentinada şəhər. Almaniyanın Bavariya şəhərinə çox bənzədiyi üçün almanlar indi də burada kompakt şəklində yaşayırlar-Lit.az) adlı əsəri ona dünya şöhrəti gətirir. Həmin vaxt yazıçı əsərin ikinci hissəsini də dərc edəcəyinə söz vermişdi.

2008-ci ildə Abel Bastinin "Hitler Argentinada" adlı əsəri işıq üzü görüb. Əsər bir növ "Nasistlər Bariloçda"nın davamıdır. Burada müəllif FTB-nin (Federal Təhqiqatlar Bürosu) arxivindən tapdığı materiallar, çoxsaylı sənəd və şahid ifadələri əsasında Hitlerin deyildiyi kimi intihar etmədiyini, Cənubi Amerikaya qaçırılaraq 1964-cü ilədək burada yaşadığını isbatlayır. Kitabın nəşrindən sonra Basti "Colombia" jurnalına müsahibə verməyə vaxt tapıb.

-Senyor Basti, kitabınızda iddia edirsiniz ki, guya Adolf Hitler 1945-ci il aprel ayının 30-da təyyarə ilə Berlindən qaçıb. Həmin vaxt bütün aerodromların məhv edildiyini və Berlin səmasının müttəfiqlərin nəzarətində olduğunu nəzərə alsaq, dediklərıniz nə dərəcədə həqiqətə uyğundur?

-Burda təəccüblü nə var ki? Budur sənədlər, siz də tanış olun. Bu FTB-nin indiyədək sirr kimi saxladığı məlumatdır, oxuyun: Hitler 30 aprel 1945-ci ildə saat 16:30-da Ju-52 tipli şəxsi təyyarəsinin yanında olub. Onu burada 4 nəfər görüb, onlar ifadə veriblər. Amma indiyədək deyilirdi ki, guya saat 15:30-da o, özünü öldürüb. Aprel ayının son həftəsi bir-birinin ardınca Hitlerə yaxın adamlar Unter-den-Linden prospektinə yığışıblar. Onların hamısı bura avianəqliyyat vasitəsilə gəliblər. Məsələn, reyxin nazirlərindən biri Şpeer ayın 20-də "fürer-bunkeri" tərk edərək, təyyarə ilə bu prospektə gəlib, vəziyyəti yoxlayıb və 3 gündən sonra "Fizeler-Ştorx" aeroplanı ilə rahatca geri qayıdıb. Müttəfiqlər ona mane olmayıb ki? Xeyr. Demək, bu işdə nəsə var. Aprel ayının 25-də "Bunker"də fürerin qaçırılması ilə bağlı gizli toplantı keçirilib. Həmin toplantıda Hitlerin

təyyarəsini idarə etmək taranlarda müttəfiqlərə qənim kəsilmiş Hanna Rayç adlı qadın-pilota tapşırılıb. Halbuki, fürerin Hans Baur adlı as pilotu varmış. Fürerin Üçüncü reyxin paytaxtından qaçırılması əməliyyatı "Seral" adlanıb.

- Hitlerin qaçırılmasında konkret olaraq kimlər iştirak edib?

- Aprelin 27-də Berlinə "Ştorx" tipli (on nəfərlik yeri olan təyyarə) beş təyyarə daxil olub. Ayın 28-də isə Bosser adlı pilot Hitlerin təyyarəsini, Ju-52-ni Berlinə gətirib. Bu faktlar indi də müttəfiq ölkələrin arxivlərində qorunur. İcazəsi olan istənilən şəxs onları nəzərdən keçirə bilər. Aprel ayının 29-u gecə saatlarında general Hallandın əmri ilə reyxin sonuncu hava qüvvələri - Me-262 tipli 92 ədəd reaktiv qırıcısı havaya qalxır və onlar Hanna Rayçın təyyarəsini müşayiət etməyə başlayır. Bu eksperimental "qaçışdan" yalnız 4 təyyarə qurtula bilir. Hitlerin olduğu və digər 3 təyyarə özünü İspaniyaya yetirir. Bu faktı tarixçilər dəfələrlə təsdiqləsə də, heç kəs onlara qulaq asmaq istəmir. İspaniya arxivlərində apardığım uzun sürən tədqiqatlar göstərdi ki, Hitler Yeva Braun, Müller və Bormanla birlikdə həmin ilin avqustunda sualtı gəmiylə Argentinaya gedib.

-Yaxşı, bəs Hitlerin Moskvada KQB-nin arxivində qorunan alt çənəsi necə olsun? Həm sovet tədqiqatçıları, həm də digər müstəqil ekspertlərin yekdil qərarı belədir ki, çənə sümüyü Hitlerindir. Onda belə çıxır ki, Hitler alt çənəsi olmadan qaçıb?

-Sizi yaxşı başa düşürəm, axı mütəxəssis deyilsiniz. Siz də adi tamaşaçısınız. Odur ki, yalnız ən ümumi şeylərdən xəbərdarsınız. Təsəvvür edin, 70 il bundan qabaq Hitlerin diş həkimi onun alt çənə sümüyünü rentgendən keçirib. Və rentgen çəkilişi tədqiqatçıların əlinə düşüb. O çəkilişi mən də görmüşəm. Orda ancaq dişlər görünür. Sizcə, belə keyfiyyətsiz, az qala bir əsr bundan əvvəl çəkilmiş və sümüyün formasının bilinmədiyi şəklə əsaslanmaq olarmı? Axı bu qeyri-professional yanaşmadır. DNK testi olmadan bunu belə əminliklə söyləmək ancaq qeyri-peşəkarların ağlına gələr. Rusiya tərəfinə dəfələrlə müraciət edib "gəlin, o sümüyü DNK testindən keçirək" demişəm. Hər dəfə imtina ediblər. Sonuncu dəfə "Hitlerin DNK testi üçün heç nəyi qalmayıb, nə saçı, nə dişi. Bəs sümüyün DNK nümunəsini



Adolf Hitler. 1964-cü il, 6 noyabr
Argentina. Rio-Neqro (c) LiLaz

nəylə müqayisə edəcəksiniz?" deyib, xahişimi rədd etdilər. Belə olan təqdirdə onlara Hitlerin 1960-cı ildə rəhmətə getmiş və Berqfridhof qəbiristanlığında basdırılmış Paula adlı bacısının sümüklərindən nümunə götürmək üçün aldığım icazə sənədini yolladım. Cavab yenə də müsbət olmadı. Məncə, məsələ aydındır. Onlar illər boyu formalaşmış "həqiqəti" "yalana" çevirmək istəmirlər. Tarixdə belə şeylər çox olur, amma gec-tez həqiqət qəbul olunur. İndiyədək insanları aldadırdılar ki, guya Cənubi Amerikanı italyanlar, konkret

desək, Vespuççi kəşf edib, sən demə, oranı çinli birisi kəşf edibmiş. Və yaxud deyirdilər ki, ilk çap kitabı almanlarda olub, bu da yalanmış, yenə də çinlilər bunu ediblərmiş. Bir neçə ay bundan əvvələcən 9 planet vardı. Çox gülməlidi, sən demə, onların sayı 10 imiş. İlk spirt emalı da, demə nə ərəblərə, nə çinlilərə məxsusmuş. İlk dəfə spirti buşmenlər hazırlayıbmış. Gör biz nə qədər şeylərdən xəbərsizik.

-Qayıdaq "Argentinaya qaçış" məsələsinə.

- Dediyim kimi, avqust ayının ortalarında Hitler sualtı qayıqla Argentinaya gəlib. Kaleta-delos-Loros buxtasında onları Hayns Şeffer qarşılayıb. Həmin Hayns Şeffer hələ 1945-ci ilin yanvar ayından başlayaraq reyxin qızıllarını Argentinanın Rio-Neqro əyalətində kirayələdiyi malikanəyə daşıyırmış. O, buralara yaxşı bələd imiş. İspaniya arxivində tapdığım sənədlərdə deyilir ki, Hitleri, Yevanı, Müller və Bormanı Argentinaya aparan gəmilər orada suya batırılıb. Argentinanın Daxili İşlər Nazirliyinin arxivində isə bu barədə heç nə olmadığından qayıqların batırılmasına inanmamışdım. 2003-cü ildə Rio-Neqronun mərkəzi arxivində Hayns Şefferin məktublarını tapdım. Və mənə sadaladığım bir çox məsələlər agah oldu. Həm də əmin oldum ki, Hitleri gətirən və bundan sonra batırılan sualtı qayıqlardan birində reyxin çox vacib sənədləri də unudulub. Gəmiləri həmin buxtada axtarmaq üçün bir neçə dəfə Argentina hökumətinə müraciət etdim. Cavab gəlmədi. Nəhayət, özüm pul toplayıb ekspedisiya təşkil etdim. Nəticə nə olsa yaxşıdı? Sualtı qayıqların üçü də buxtanın 30 metr dərinliyindədir. Mənə inanmırdılar. Görürsünüzmü?

-Sizin əlinizdə Hitlerin intihar etməsini inkar edən sənədlər var. Və bu sənədlər ABŞ FTB-sinə məxsusdur. Bax götürək elə bu sənədi - "10 aprel 1945-ci il. ABŞ-ın Argentinadakı casusu-Eykhorn soyadlı varlı alman kolonistlərinin bağbanı işləyən agenti xəbər verir: artıq bir neçə həftədir ki, ailə Hitlerin Argentinaya gəlişinə hazırlaşır. Hayns Şeffer adlı qohumları onlara daha tez-tez gəlməyə başlayıb. Ciddi hazırlıq gedir."

- Bu sənəd təhqiqatlar bürosunun arxivində 65-53615 nömrəsi ilə şifrələnib. Mütəxəssilərə bu sənəd tanışdır. Lakin mən dəqiq bilirəm ki, bu işlə bağlı məxfi sənədlər çoxdur. Məsələn, bu yaxınlarda mən maraqlı bir sənəd tapdım. Bu İosif Stalinin ABŞ-ın dövlət katibi Birnslə telefon söhbətinin stenoqrafik yazısı idi. Telefon danışığında Birns ona deyir: "Cənab Stalin, heyif ki, Hitler əlimizdən çıxdı. İndi onu Buenosda ələ keçirmək çox çətindir."

-Senyor Basti, sizə elə gəlmirmi ki, bəzən şahidlərin ifadələrinə çox aludə olursunuz? Kitabınızda Argentinada Hitlerə hər səhər meyvə aparan, onunla söhbət edən, tədbirlərdə onunla yanaşı oturan bir sıra adamlarla müsahibə dərc etmisiniz. Axı Hitlerin Berlində ölümünə şahid olan adamlar da az deyil.

- Heç kəs Hitlerin "bunker"dəki meyitini gözü ilə görməyib. Elə bir sənəd yoxdur, olmayıb, olmayacaq. Bütün bunlar uydurmadır. Gah deyirlər gicgahına atəş açıb, ölməyib, zəhər içib, gah da deyirlər, xeyr, əvvəl zəhər içib, sonra özünü güllələyib. Bu iki şeyi belə rahatlıqla ard-arda düzmək gülüncdü. Adamı bir saniyənin içində məhv edən zəhəri içdikdən sonra ağır tapançanı götürüb necə atəş açmaq olar? Və yaxud, əksinə.

Tərcümə:
Elşən ÇİNGİZ
Lit.Az

MOZAİKA

Putinin köpəyi siyasətçilərin yeməyini yedi



Rusiyanın baş naziri Vladimir Putinin "Koni" adlı iti iqtidarda olan "Vahid Rusiya" partiyasının yetkililəri üçün hazırlanan yeməkləri yeyib.

Lent.az-ın məlumatına görə, Putin Novo-Oqaryovada evində partiyasının yüksək vəzifəli şəxsləri ilə görüş təşkil edib. Partiya təmsilçiləri baş nazirlə söhbət edərkən, Putinin iti qonaqlar üçün hazırlanmış yeməklərin saxlandığı otağa girib. Köpək otaqdakı yeməkləri yeyib.

Putinin mühafizəçilərindən biri bu mənzərə qarşısında "Koni hər şeyi yeyib, qurtarıb" deyə təəccüblənib.

OBAMADAN KRALİÇAYA XÜSUSİ HƏDİYYƏ



ABŞ prezidenti Barak Obama İngiltərə kraliçası II Yelizavetaya iPod hədiyyə edib.

Lent.az-ın məlumatına görə, ABŞ prezidenti və xanımı Mişel Obama Londonda keçirilən G-20 zirvəsində ölkə başçıları üçün təşkil olunan qəbul zamanı II Yelizaveta ilə görüşüblər. Görüşdə Obama cütlüyü kraliçaya onun 2007-ci ildə Vaşinqton və Virciniyaya səfərlərinin videosu olan iPod və bəstəkar Riçard Rodgersin imzası ilə musiqi kitabı hədiyyə edib.

Kraliça isə ABŞ prezidenti və xanımına imzalanmış portretlər bağışlayıb.

LİDERLƏRİN MƏVACİBİ:
MEDVEDYEV OBAMADAN 4 DƏFƏ AZ MAAŞ ALIR



Rusiya prezidenti Dmitri Medvedyev amerikalı həmkarı Barak Obamadan 4 dəfə az məvacib alır. Lent.az-ın məlumatına görə, Böyük Britaniyanın "The Financial Times" qəzeti dünya liderlərinin maaşını hesablayıb.

Obama ildə 400 min dollar alır. Bu, kursla çevirdikdə 292 min avrodur. Dmitri Medvedyev isə ildə 67 min avro maaş alır. Rusiya prezidentinin məvacibi dünya liderlərinin çoxunun maaşından azdır. Məsələn, İrlandiyanın baş naziri Brayan Kouen ildə 257 min, Fransa prezidenti Nikolya Sarkozi isə 240 min avro məvacib alır. Onlardan sonra Almaniyanın kansleri Angela Merkel (228 min) və Böyük Britaniyanın baş naziri Qordon Braun (199 min) gəlirlər. Qeyd edək ki, cəmi 1,5 il əvvəl Braun Avropanın ən yüksək məvacib alan lideri olub. Amma bu müddət ərzində Sarkozinin maaşı təxminən iki dəfə artıb. İngilis funtu isə qiymətdən düşdüyündən digər liderlər də Braunu qabaqlaya biliblər.

Bütün dünyada ən yüksək məvacib alan isə Sinqapurun baş naziri Li Syan Lundur. O, əlavə ödəmələrdən asılı olaraq ildə 2-2,5 milyon dollar qazanır. Bu il isə baş nazirin büdcəsini 20 faiz azaltmaq qərara alınıb.Əfqanıstan prezidenti Həmid Karzay isə ayda cəmi 500 dollar alır. Karzay əlavə heç bir gəliri olmadığını bildirir. Əfqanıstan prezidentinin nə öz evi, nə torpağı, nə də maşını var. Karzay iddia edir ki, bank hesabında cəmi 10 min dollar pulu və bir neçə qiymətli daş-qaşı var.

MƏŞHUR FUTBOLÇULARIN



Alena Seredova - İtaliya milli komandası və "Yuventus"un qapıçısı Canluici Buffonun həyat yoldaşı



Konni Lemann - Almaniya yığmasının sabiq qapıçısı, hazırda "Ştutqart"da oynayan Yens Lemannın həyat yoldaşı



Eva Qonsales - İspaniya milli komandasının və "Real"ın qapıçısı İker Kasilyasın həyat yoldaşı



Anine Binq - İsveç milli komandasının və "Elfsborq"un yarımmüdafiəçisi Anders Svenssonun həyat yoldaşı

Avropada futbolçular, bir qayda olaraq, gözəl qadınlarla ailə həyatı qururlar. Onlar model, tanınmış müğənni və ya aktrisa ilə evlənirlər. Bunu sizə təqdim etdiyimiz şəkillərdə xanımların fotoqraf qarşısındakı pozaları da təsdiq edir. Aparılan araşdırmalara əsasən məlum olub ki, indi ən gözəl futbolçu xanımı Alena Seredovadır. 31 yaşlı manekenin bəxti 1998-ci ildə açılıb.



Belen Rodriges - İtaliya milli komandasının və "Milan"ın hücumçusu Marko Borriellonun həyat yoldaşı



Lena Borovski - Almaniya milli komandasının və "Bavariya"nın yarımmüdafiəçisi Tim Borovskinin həyat yoldaşı



Marta Keççetto - İtaliya milli komandasının və "Bavariya"nın hücumçusu Luka Toninin həyat yoldaşı

GÖZƏL XANIMLARI



Nani Qaytan - İspaniya milli komandasının və "Real"ın müdafiəçisi Serxio Ramosun həyat yoldaşı



Noemie Lendir - Fransanın PSJ klubunun müdafiəçisi Klod Makelelenin həyat yoldaşı



Oksana Andersson - İsveç milli komandasının və Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubunun futbolçusu Kristian Uilhelmssonun həyat yoldaşı

Həmin il italyan əsilli Alena Çexiya gözəli seçilib. Sonradan İtaliya yığmasının və "Yuventus"un qapıçısı Canluici Buffonla evlənən Seredova bir uşaq anasıdır.

Ancaq bu mənada təkcə Buffonu misal göstərmək olmaz. Digər tanınmış futbolçular da, fotolardan göründüyü kimi, "quşu gözündən vurublar".



Rosaria Kannavo - İtaliya milli komandasının sabiq futbolçusu, hazırda "Roma"nın şərəfini qoruyan Kristian Panuççinin həyat yoldaşı



Silvia van der Vaart - Hollandiya milli komandası və "Real"ın yarımmüdafiəçisi Rafael van der Vaartın həyat yoldaşı



Sonia Amoruzo - İtaliya milli komandasının və "Yuventus"un hücumçusu Aleksandro del Pyeronun həyat yoldaşı



Valentina Zambrotta - İtaliya milli komandası və "Milan"ın müdafiəçisi Canluka Zambrottanın həyat yoldaşı

UŞAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

BİRİNCİLƏRİN QONAĞI OLDUM...

Bu dəfə balaca birincilərin (I c sinfi) qonağı oldum... Onlarla ilk tanışlığım məndə çox gözəl təəssürat yaratdı. Və bir az da təəccübləndirdi. Balaca olmalarına baxmayaraq bilikləri, maraq dairələri genişdir... Suallarıma böyük maraq və həvəslə cavab verdilər. Elə ilk sualıma o qədər müxtəlif cavablar verdilər ki, az qala göy cisimləri haqqında bütün "məlumat"ları aldım.

– UŞAQLAR, KİM DEYƏR, YER KÜRƏSİ HANSI FORMADADIR?

Sərdar: *Əslində yumrudur, amma biz gəzəndə elə bilirik ki, düzdür.*

Kənan: *İnsanlar onu görmədiklərinə görə elə bilirlər ki, düzdü. Amma alimlər deyirlər ki, yumrudu.*

Pərvaz: *(həyəcanla) Yer kürəsi fırlanır, o fırlandıqca ölkələrdə havalar da dəyişir. Bəzi ölkələrdə axşam, bəzilərində isə səhər olur.*

İrfan: *Biz göyə baxanda ulduzları çox balaca görürük, amma əslində onlar çox böyükdülər.*

Nurlan: *Mən də bilirəm ki, dünya fırlandıqca fəsillər, aylar dəyişir...*

– SİZCƏ, TƏBİƏTDƏ HANSI RƏNGLƏR DAHA ÇOXDUR?

Nigar: *Yaşıl.*

Pərvaz: *Yox, bir rəng qaldı! Yaşıl və göy. Yaşıl ağaclardı, göy isə dənizdir...*

Fərid: *Qırmızı.*

Kənan: *Qəhvəyi! Axı ağaclar qəhvəyidi...*

İrfan: *Mavi.*

Sərdar: *Axı rənglər müxtəlif olur, ona görə də, hər rəngdən olur.*

Aylin: *Təbiətdə ağ və qırmızı rənglər daha çoxdur. Axı güllər bu rəngdə olur...*

– SİZCƏ, EVLƏR OLMASAYDI, İNSANLAR HARADA YAŞAYA BİLƏRDİLƏR?

Pərvaz: *Onlar çadırda yaşayardılar.*

Şəhriyar: *Evləri olmasaydı, at belində gəzərdilər.*

Sərdar: *İnsanlar taxtadan evlər, komalar düzəldə bilərdilər və onlarda yaşayardılar.*

Kənan: *Taxta yandırıb onun istisinə qızınardılar.*

Irfan: *Daşlardan yumru, balaca evlər düzəldib yaşayardılar.*

Fərid: *Evlər olmasa, adamlar soyuqdan donub ölərlər. Ona görə də, onların evləri olmalıdır.*

– UŞAQLARIN ƏN BÖYÜK ARZULARI NƏDİR? ONLARI ƏN ÇOX NƏ SEVİNDİRİR?

Aylin: *Süd içmək, oyuncaqlarla oynamaq.*

Pərvaz: *Uşaqlar axşamlar süd içməlidirlər, onlar oyuncaqlarla oynamağı da çox sevirlər.*

Sərdar: *Balaca uşaqlar oyuncaqla oynamağı sevirlər, böyük uşaqlar isə dərs oxumağı sevirlər.*

Nurlan: *İnstituta girmək.*

– TƏSƏVVÜR EDİN Kİ, VALİDEYNLƏRİNİZ SİZƏ ÖZ OTAĞINIZIN DİVARLARINI İSTƏDİYİNİZ RƏNGLƏRLƏ BOYAMAĞA, HƏTTA ŞƏKİL DƏ ÇƏKMƏYƏ İCAZƏ VERİB. ƏN BİRİNCİ KİMİN VƏ YA NƏYİN ŞƏKLİNİ ÇƏKƏRDİNİZ?

Nigar: *(Həyəcanla) Mən çəkməzdim, çünki otağım səliqəli olmazdı axı?! Çox pis olar bizim otağımız! Qonaqlar gələndə ayıb olar.*

Şəhriyar: *Əgər icazə versələr, narıncı və qəhvəyi karandaşlarla şir şəkli çəkərdim. (Şəhriyar bu sözləri deyəndə Nigar içini çəkərək əlləri ilə üzünü tutdu).*

Pərvaz: *Divarı yazmaq olmaz. Kağızda çəkmək lazımdı.*

Irfan: *Mən çəkməzdim, amma çəksəydim də balaca qardaşımın şəklini çəkərdim (gülür).*

Sərdar: *Balaca uşaqlar anlamır, çəkir. Mən indi böyümüşəm, çəkmirəm. Amma uşaq olanda yazırdım.*

Fərid: *Biz divarı yazsaq, anamız əziyyət çə-*



kər, ona görə də olmaz.

Nurlan: *Mən divara heç vaxt şəkil çəkmərəm.*

Nurat: *Öz otağımızı səliqəsiz saxlaya bilmərik, qonaqlardan ayıb olar.*

Səbinə: *Mən heç nə çəkməzdim.*

Sonuncu sualıma cavab verən uşaqlardan "ən səliqəsizi", deyəsən, Şəhriyar oldu. Uşaqlara uğurlar arzulayaraq, xoş hisslərlə onlardan ayrıldım.

Mədinə RZAYEVA,
Məktəbin müəllimi

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

TAPMACA *(bilməcə)* - hər hansı bir əşya, hadisəni bənzətmə yolu ilə qəsdən dumanlı şəkildə göstərən yığcam məcazi ifadə – şifahi xalq ədəbiyyatı janrı. Tapmaca, bilməcə əksər hallarda cavabın mühüm cəhətlərini özündə əks etdirir.

TAVTOLOGİYA - eyni fikrin, yaxud hadisənin gah bu, gah da digər sözlərlə ifadəsi. Bədii dildə tavtologiyadan ifadəni daha güclü, daha təsirli etmək məqsədilə təkrarın müsbət mənalı növlərindən biri kimi də istifadə edilir.

TAZİYANƏ - satirik şeir formalarından biri. Rus və Qərbi Avropa ədəbiyyatında *"epiqram"* adı ilə tanınan bu şeir forması çox vaxt 4-6 misradan ibarət olur və bitkin bir fikir ifadə edir.

TƏCNİS - lirik növün nisbətən az yayılmış formalarından biri. Təcnisdə qafiyələr cinas sözlər üzərində qurulur. Təcnisin dodaqdəyməz, cığalı, gedər-gəlməz və s. 30-a yaxın növü vardır. Aşıq şeirində təcnis, adətən, üç bənddən ibarət olur. Qafiyə quruluşu belədir: *abcb, çççb, dddc.*

TƏDRİC - bədii əsərdə ifadənin mənaca və ruhən get-gedə qüvvətlənməsi, yaxud zəifləməsi.

TƏQRİZ - nəzm,yaxud nəsr əsərini şişirdilmiş şəkildə tərifləyən, mədh edən yazı, rəy.

TƏQTİ - şeirin hər misrasında durğuya, fasiləyə əsaslanan bölgü. Təqti şeirin bütün vəznləri üçün məqbul sayılır.

TƏHZİL *(parodiya)* - orta yüzilliklərdə və yeni dövrdə Şərq ədəbiyyatında əsərin zarafatyana şəkildə yazılması.

TƏXƏLLÜS - bəzi sənətkarların özləri üçün seçdikləri ad, yaxud soyad. Təxəllüsü ya sənətkar özü seçir, ya da ona müəllimi, qələm yoldaşı verir.

Təxmis *(beşləmə)*- hər bəndi beş misradan (müxəmməs kimi) ibarət şeir forması. Təxmisdə müəllif hər bəndin üç misrasını özü yazır. Son iki misranı isə başqa şairin şeirindən götürür. Bunlar məzmunca bir-biri ilə bağlı olur.

TƏKRİR - əsərdə bədiiliyi artırıb qüvvətləndirmək məqsədilə eyni sözün, yaxud ifadənin ustalıqla, bilərəkdən təkrar edilməsi.

TƏLMİ - bir şeirin misralarının bir qismini başqa dildə yazmaq.

TƏMSİL - tənqid və nəsihətamiz məzmunda satirik, təsviri əsər. Həcmcə çox da böyük olmur. Təmsil həm nəzmlə, həm də nəsrlə olur. İnsan xarakterinə məxsus xüsusiyyətlər, insani münasibətlər təmsildə heyvanların, bitkilərin, əşyaların təsviri yolu ilə verilir.

TƏNQİD - ədəbiyyatşünaslığın əsas sahələrindən biri; müasir ədəbi prosesin, bədii əsərlərin və ümumiyyətlə ədəbiyyatın nəzəri məsələlərinin izahına, təhlilinə həsr olunan əsərlər, məqalələr, qeydlər.

TƏRCİBƏND - Azərbaycan klassik şeirində lirik janr formalarından biri. Əsasən məhəbbət, gözəllik, sosial-fəlsəfi məzmunlu olur. Mövzu və vəzn etibarilə eyni olan bir neçə bəndlik şeirdir. Bəndlər qafiyə quruluşu ilə fərqlənir. Birinci bənddə misralar bir-birilə həmqafiyə olur, axırda isə birinci bəndin son beyti nəqarət şəklində təkrar olunur. Digər bəndlərin də qafiyə quruluşu ikinci bənddə olduğu kimidir.

TƏRKİBBƏND - şərq lirik şeir formalarından biri. Hər bənddə 6-dan 12-14-ə qədər, bəzən isə daha çox misralar olur. Şeirin nər bəndinin qafiyə sistemi vardır. Birinci bəndin son beytindən başqa, digər misraları həmqafiyə olur. Son beytdə isə misralar bir-biri ilə həmqafiyə olur. Digər bəndlər də elə bu şəkildə qafiyələnir.

TƏŞBİH - məcaz növlərindən biri. Bədii əsərdə hadisənin, adamın və ya məfhumun müəy-

yən cəhətdən ona bənzəyən başqa hadisəyə, adama, məfhuma qarşı qoyulmaq yolu ilə təsvir edilməsi.

TİP - müəyyən bir fərdin bu və ya başqa sosial qrup, sinif, xalq üçün, yaxud ümumən bəşəriyyət üçün səciyyəvi sifətlərini təcəssüm etdirən bədii surət.

TRAGİKOMEDİYA - faciə və komediya xüsusiyyətlərini üzvi surətdə özündə cəmləşdirən dramatik əsər.

TRİLOGİYA - dramaturji, yaxud təhkiyə janrında yazılıb, vahid müəllif qayəsi ilə bir-birinə bağlı ədəbi əsər.

TRUBADUR - lirik şeirlər qoşub, onları skripka, yaxud başqa çalğı alətlərinin müşayiəti ilə ifa edən şair-müğənni.

TYUQ - "duymaq" məsdərindən əmələ gələn bu termin türkdilli xalqların orta əsrlər poeziyasında işlənmiş formalardan birinin adıdır. Tyuq mahiyyətcə rübaiyə yaxın olub fəlsəfi, hikmətamiz məzmunlu olur. Əruzun rəməl bəhrində olur və dörd misradan ibarət olmaqla *aaba* şəklində qafiyələnir.

TÜRKÜ - daha çox Anadoluda yayılmış xalq nəğməsi. Şərqilər kimi musiqinin müşayiəti ilə oxunur. Türkü mətnləri heca vəznində olur. Bəzən türkülərin hər bir bəndinin sonunda eyni ifadə, eyni misra, eyni beyt təkrar olunur.

Hazırlayanı:
Bəhlul ABDULLA

MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?



* *Bir insan 12 pizzanı bir dəqiqə 45 saniyəyə yeyib.*
* *Mişel Lotito 1959-cu ildən bəri metal və şüşə yeyir. O, bir günə 900 q metal yeyib.*
* *2001-ci ildə martın 23-də Yaponiyanın Koqoshima şəhərində uzunluğu 12,80 m, eni 11,72 m olan palto tikilmişdi.*
* *Charli Vilson 7 saat 55 dəqiqədə 1015 parça pirsenq vurub.*
* *Dünyada ilk dəfə Pokfeller bir milyon pul qazanıb.*
* *Yer üzündə mövcud olan dillərdən ən sadəsi Havay dilidir. Bu dildə 5 sait, 6 samit vardır.*
* *"Çilçıraq" sözünün mənası "40 şamdan"dır.*
* *Dinozavrlar Mezazoy erasında yaşayıblar.*
* *Qumru göyərçini köçəridir.*
* *Xəzər dənizinin ən böyük balığı ağ balıqdır.*
* *Kobraya "eynəkli ilan" deyirlər.*
* *Venesiya şəhəri 118 adanın üzərində yerləşir.*
* *Qunduz Kanadanın rəmzidir.*
* *İlk qadın həkim ABŞ vətəndaşı olub.*
* *İnsan beyninin 90%-i sudur.*

Toplayanı:
Nurlana MƏMMƏDLİ,
VII sinif şagirdi

DÜZƏLİŞ

Jurnalımızın ötən nömrəsində "Bir qadın tanıyıram..." sərlövhəli yazıda "Dünya" məktəbinin müəllimi, rəssam Fəridə Hüseynovanın səhvən məşhur muğam ifaçısı Hacıbaba Hüseynovun qızı olduğu göstərilmişdir. Redaksiya bu səhvə görə Fəridə xanımdan və mərhum xanəndənin ailəsindən üzr istəyir.

ELAN

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 3 iyun tarixli, 128 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici ölkələrdə təhsil alacaq Azərbaycan gənclərinin seçim qaydaları"na uyğun olaraq Cənubi Koreyanın KAİST Universitetində (Koreya Yüksək Elm və Texnologiyalar Universiteti) informasiya kommunikasiya texnologiyaları və kompüter elmləri üzrə bakalavr pilləsində təhsil almaq məqsədilə Təhsil Nazirliyi müsabiqə elan edir.

Bakalavr pilləsində təhsil almaq üçün müsabiqədə Azərbaycanın ali məktəblərinin bakalavr pilləsinin I və II kursunda təhsil alan, bakalavr pilləsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki sahələr üzrə ən azı 550 bal, digər sahələr üzrə ən azı 600 bal toplayan 18 yaşı tamam olmuş tələbələr iştirak edə bilər.

Müsabiqədə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Ərizə-əsaslandırma (2 dildə-Azərbaycan və xarici dildə) ; 2. Doldurulmuş xüsusi anket forması (Təhsil Nazirliyində əldə edilir); 3. Tövsiyə məktubu (iddiaçının təhsil aldığı ali məktəbin professor-müəllim heyəti tərəfindən verilir, 2 ədəd, formanı http://http://admission.kaist.ac.kr/sub05/sub05_1.do saytından əldə edə bilərsiniz); 4.Xüsusi anket forması (http://admission.kaist.ac.kr/sub05/sub05_1.do saytından əldə edə bilərsiniz) 5.Ali məktəbə qəbul vaxtı TQDK tərəfindən topladığı bal haqqında arayış; 6. Ali məktəb tərəfindən verilən tələbənin təhsil alması barədə arayışın və qiymət kitabçasından çıxarışın sürətləri (notarial qaydada təsdiq olunmuş ingilis dilində tərcüməsi); 7.TOEFL və ya digər beynəlxalq səviyyəli sertifikatı olmalıdır; 8.Tərcümeyi-hal (CV) (2 dildə-Azərbaycan və xarici dildə);
9.3,5x4,5 sm. ölçüdə 6 ədəd rəngli fotoşəkil. 10.Şəxsiyyət vəsiqəsinin surəti.

Sənədlər hər gün saat 10.00-dan 18.00-dək Təhsil Nazirliyində qəbul edilir.

Sənədlərin təqdim edilməsi üçün son müddət: 10 may 2009-cu il.

Əlaqə telefonları: 496-33-11; 496-34-00 (daxili 260; 288).


Təhsil Nazirliyi <file:///D:/Мои%20Документы/CAS-2/portal/xeber_xidmeti/Prog/<http://edu.gov.az/view.php?lang=az&menu=133&id=2088>>

KİTABXANAMIZIN YENİ KİTABLARI




Altınay A. Türkiye'de kadına yönelik şiddet / A. Altınay, Y. Arat. – İstanbul, 2007. – 122 s. – ISBN 978-975-01103-2-0

Who's who in (European) commerce and industry. – Berlin: IBP, 2009. – 1460 p. – ISBN 978-3-922236-57-3



Məmmədov S. Azərbaycan tarixi (ən qədimdən 2006-cı ilədək). – Bakı: Çaşıoğlu, 2007. – 392 s.





Гасанова Э.Ю. Социология религии и мусульманского мистицизма-тасаввуфа в Турции XX в.(идейные истоки, основные проблемы, новые тенденции). – Баку: Əli Nəşriyyat Evi, 2006. – 288 с. – ISBN 9952-25-042-8




Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri. – Bakı: Səda, 2008. – 264 s. – ISBN 9852-428-05-02

Март 1918 г. Баку. Азербайджанские погромы в документах / сост. С.А. Рустамова-Тогиди. – Баку, 2009. – 864 с. – ISBN 978-9952-8000-9-8



Shakespeare W. A midsummer night's dream. – London: Penguin Books, 1994. – 106 p. – ISBN 0-14-062095-8



Политическая история (краткий курс лекций). – Баку: Бакинский Университет Бизнеса, 2006. – 204 с.



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org